Xalqın qəzeti!
# Xalq qəzeti
№ 156 (30272) 27 iyul 2023-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycanda, bütövlükdə, elektroenergetika sahəsi son illərdə çox sürətlə və uğurla inkişaf etmişdir. Son 20 ildə 34 elektrik stansiyası inşa edilmişdir və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Ümumi generasiya gücümüz 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılmışdır.**

# Azərbaycan regionun güclü enerji ölkəsidir

## Prezident İlham Əliyev "Şimal" Elektrik Stansiyasının yeni estakadasının və su nasos stansiyalarının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Şimal" Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və "Şimal" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edib.**

Əvvəlcə ölkəmizdə su elektrik stansiyaları ilə bağlı həyata keçirilən işlər barədə videoçarx nümayiş olundu.

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, son 20 ildə Xəzər dənizində suyun səviyyəsinin iki metrə yaxın aşağı düşməsi ölkənin ikinci böyük elektrik stansiyası olan və Bakının 40 faizdən artıq ərazisini elektrik enerjisi ilə təchiz edən, ümumi gücü 800 MVt olan "Şimal" Elektrik Stansiyasının işində ciddi çətinliklər yaratmışdı.

*(ardı 3-cü səhifədə)*

## Syerra-Leone Respublikasının Prezidenti Zati-aliləri cənab Culius Maada Bioya

**Hörmətli cənab Prezident!**

Syerra-Leone Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Syerra-Leone arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

# Biz Cənubi Qafqaza sülhü hərb yolu ilə gətirmək istəmirik

**Xəbər verildiyi kimi, iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandıran Azərbaycan Prezidentinin arqumentləri, səsləndirdiyi proqnozlar və xatırlatdığı faktlar artıq dünyanın əksər ölkələrinin mətbuat vasitələrində özünə kifayət qədər yer tapmışdır. Eyni zamanda, beynəlxalq aləmdə hamı növbəti dəfə gördü ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir və rəsmi Bakı sülhə nail olmaq üçün güc tətbiq etmək istəyindən uzaqdır. Təbii ki, bu forum Azərbaycanın həmin xoşməramlı mövqeyinin dünya ictimaiyyətinə bir daha çatdırılması baxımından xüsusi önəm kəsb etdi.**

Mən bu faktları nəzərdən keçirərkən rəsmi Bakının 2008-ci ildə keçirdiyi möhtəşəm beynəlxalq tədbirlərdən birini xatırladım. Belə ki, həmin il paytaxtımızda baş tutmuş Avropa dövlətlərinin mədəniyyət nazirləri ilə İslam ölkələrinin mədəniyyət nazirlərinin görüşü sonradan sivilizasiyalararası dialoqa təməlini qoymuşdu. İndi artıq əminliklə deməl olar ki, Azərbaycan beynəlxalq aləmə "Şuşa prosesi"ni də təqdim edir. Elə tədbirin türkiyəli iştirakçıları da bu istəklərini dilə gətirdilər.

Dövlət başçımızın "həm ölkəmiz üçün, həm də Qarabağ bölgəsi üçün möhtəşəm əhəmiyyət kəsb edən tədbir" adlandırdığı Qlobal Media Forumunun Azərbaycanın mədəniyyət paytaxtında, işğalçı ordu üzərindəki tarixi Qələbəmizin və sülhün rəmzi olan Şuşada keçirilməsi də qürurverici idi. Cənab Prezidentin xatırlatdığı kimi, Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatmışdı.

*(ardı 5-ci səhifədə)*

## İrəvan siyasi şantaj yolunu seçib

Səhifə ⇨ 5



## Hikmət Hacıyev: Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməlidir

Səhifə ⇨ 3



## Ağdam–Xankəndi yolu malların daşınması üçün açıqdır



Səhifə ⇨ 4

## Rusiya vasitəçiliyi, Lavrov missiyası: hər şey var – heç nə yoxdur

Səhifə ⇨ 6

## "Dərbənd" qəzeti imdad diləyir



Səhifə ⇨ 10

## Orta Dəhliz Şərqlə Qərbi qovuşduran mötəbər logistik şəbəkədir

Səhifə ⇨ 7




## Avropa anomal istilərin cəngində...




Səhifə ⇨ 10

## Xəzərdən Avropaya "mavi axın"

Səhifə ⇨ 7




## Rusiya–Ukrayna müharibəsi: cəbhə boyu mövqe döyüşləri gedir



Səhifə ⇨ 10

## “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Məcəllənin 67-1.4.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkilə ödənilən haqqın məbləğinin dəyişdirilməsi zərurətini öyrənsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517; 2018, № 11, maddə 2261; 2019, № 6, maddə 1030, № 12, maddə 1931; 2020, № 11, maddə 1358; 2021, № 7, maddə 737; 2022, № 5, maddə 476; 2023, № 1, maddələr 85, 98; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 iyun tarixli 2166 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-1-ci bənddə “118.2-ci maddəsində” sözləri “67-1.6-cı və 118.2-ci maddələrində” sözləri ilə əvəz edilsin;

4.2. 2.6-cı bəndə “Məcəllənin” sözündən sonra “67-1.4.5-ci,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 865; 2020, № 8, maddə 1039) ilə təsdiq edilmiş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası”nın 4.1-ci bəndinin ikinci və üçüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

“Müraciət edənin KOB subyektinə aid olmasının müəyyənləşdirilməsi üçün tələb olunan sənədlərin (kommersiya hüquqi şəxslərin reyestrindən çıxarış, vergi uçotuna alınması haqqında şəhadətnamə, bu Qaydanın 5.1.2-ci və 5.1.3-cü yarımbəndlərində göstərilən meyarların qiymətləndirilməsi ilə bağlı sənədlər) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər KOB subyektindən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi KOB subyektinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya KOB subyekti tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2154 və 2161 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.3-cü bəndə “dəyişdirilməsi” sözündən sonra “, şəxsiyyət vəsiqəsinə yerləşdirilən elektron daşıyıcıda (çipdə) məlumatların dəyişdirilməsi” sözləri əlavə edilsin.

**2.** 5.7-ci bənd üzrə:

2.1. birinci abzasda “əməliyyatların” sözü “əməliyyatlar və onların” sözləri ilə əvəz edilsin;

2.2. 5.7.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.7.1. daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi;”;

2.3. 5.7.3-cü yarımbənd ləğv edilsin;

2.4. 5.7.4-cü yarımbənddən “torpaq üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışın, həmin” sözləri çıxarılsın;

2.5. aşağıdakı məzmunda 5.7.5 – 5.7.15-ci yarımbəndlər əlavə edilsin:

“5.7.5. daşınmaz əmlakın real bazar dəyərinin qiymətləndirilməsinə dair arayışın verilməsi;

5.7.6. daşınmaz əmlakın dövlət reyestrindən əmlakın təsviri və ünvanı barədə məlumatların verilməsi;

5.7.7. daşınmaz əmlak obyektinin (torpaq sahəsinin) sxematik bölgüsünün aparılması və bölgü planının verilməsi;

5.7.8. torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarının yerdə (naturada) müəyyən edilməsi;

5.7.9. daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı arxiv arayışlarının, hüquqi və texniki sənədlərin (planların) təsdiq edilmiş surətlərinin verilməsi;

5.7.10. yerquruluşu planının verilməsi;

5.7.11. daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi;

5.7.12. ünvan reyestri məlumat bazasından arayışların verilməsi;

5.7.13. ünvan xəritələrindən çıxarışların verilməsi;

5.7.14. daşınmaz əmlaka dair texniki sənədlərin dublikatının verilməsi;

5.7.15. daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış hüquqların qeydiyyatının ləğv edilməsi;”.

**3.** 5.20.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.21 – 5.24-cü bəndlər əlavə edilsin:

“5.21. energetika sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:

5.21.1. ixrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi;

5.21.2. ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün icazənin verilməsi;

5.21.3. mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə icazənin verilməsi;

5.21.4. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik enerjisinin istehsalına icazənin verilməsi;

5.21.5. elektrik enerjisinin nəqlinə icazənin verilməsi;

5.21.6. elektrik enerjisinin paylanmasına icazənin verilməsi;

5.21.7. elektrik enerjisinin ixrac və idxal edilməsinə icazənin verilməsi;

5.21.8. qazın istehsalına və təbii qazın emalına icazənin verilməsi;

5.21.9. qazın nəqli üçün icazənin verilməsi;

5.21.10. qazın paylanmasına icazənin verilməsi;

5.21.11. yeraltı qaz anbarlarının işlənməsi, tikilməsi və istismarına icazənin verilməsi;

5.21.12. neft və qaz yataqlarının kəşfiyyatına icazənin verilməsi;

5.21.13. neft və qaz yataqlarının işlənməsinə və hasilatına icazənin verilməsi;

5.21.14. neft və neft məhsullarının emalına icazənin verilməsi;

5.21.15. neft və neft məhsullarının boru kəmərləri vasitəsilə nəqlinə icazənin verilməsi;

5.22. təhsil sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:

5.22.1. təhsilalanlara təhsil müəssisələrində təhsil almalarına dair arayışların verilməsi;

5.22.2. sertifikatlaşdırmadan keçmiş təhsilverənlərə sertifikatların verilməsi;

5.23. fövqəladə hallar sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:

5.23.1. təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarışın verilməsi;

5.23.2. partlayıcı maddələrin və qurğuların, tezalışan maddələrin və pirotexniki məmulatların dövriyyəsinə xüsusi icazənin verilməsi;

5.24. ətraf mühitin mühafizəsi sahəsində xidmətlərin göstərilməsi ilə bağlı:

5.24.1. atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə icazənin verilməsi;

5.24.2. balıqovlama biletinin verilməsi;

5.24.3. ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə ovçuluq biletinin verilməsi, biletin müddətinin uzadılması;

5.24.4. ozondağıdıcı maddələr və tərkibində belə maddələr olan məhsulların dövriyyəsinə xüsusi icazənin verilməsi.”.

**4.** 6-cı hissəyə “Kənd Təsərrüfatı Nazirliyinə,” sözlərindən sonra “Energetika Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Elm və Təhsil Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## A.N.Nağıyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Arzu Nəsib oğlu Nağıyev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı ilə təsdiq edilmiş “DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022, № 12, maddə 1448; 2023, № 2, maddə 219; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 iyul tarixli 2210 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası”na aşağıdakı məzmunda 4.1-1 və 4.8-1-ci bəndlər əlavə edilsin:

“4.1-1. Vətəndaşın əldə etmək istədiyi xidmətlə bağlı tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər vətəndaşdan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vətəndaş tərəfindən təmin edilir.”;

“4.8-1. Səyyar xidmət göstərilməsi zamanı tələb olunan sənədlər bu Qaydanın 4.1-1-ci bəndinə uyğun olaraq əldə edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 10, maddə 640; 2006, № 7, maddə 590; 2009, № 2, maddə 70; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2022, № 12, maddə 1431; Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 sentyabr tarixli 395 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 3.1.6-1-ci yarımbənd əlavə edilsin:

“3.1.6-1. Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər iştirakçılardan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi iştirakçının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya iştirakçı tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 877 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 877 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 682; 2019, № 2, maddə 241; 2022, № 8, maddə 858, № 12, maddə 1423) ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”na aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. Təsdiqedici sənədi almaq üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər sahibkardan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sahibkarın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sahibkar tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820; 2017, № 5, maddə 821, № 11, maddə 2006; 2018, № 2, maddə 181, № 5, maddə 920, № 6, maddə 1196, № 9, maddə 1825; 2019, № 1, maddə 59, № 2, maddə 218, № 5, maddə 837; 2020, № 2, maddə 93; 2022, № 12, maddə 1433) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”na aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

“5.4-1. Bu Qaydanın 5.4-cü bəndində göstərilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciəti göndərən şəxsdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciəti göndərən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciəti göndərən şəxs tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 iyul 2023-cü il**

# Prezident İlham Əliyev “Şimal” Elektrik Stansiyasının yeni estakadasının və su nasos stansiyalarının açılışında iştirak edib

(əvvəli 1-ci səhifədə)



Çünki suyun səviyyəsinin gündən-günə aşağı düşməsi stansiyanın soyutma suyu ilə təchiz olunmasında ciddi problem yaradırdı və ən böyük həcmdə enerji istehsal edən “Şimal-1” və “Şimal-2” elektrik stansiyalarının yaxın perspektivdə fəaliyyətini tamamilə dayandırması qaçılmaz idi. Bu təhlükəni aradan qaldırmaq üçün təxirəsalınmaz şəkildə “AzərEnerji” ASC tərəfindən Xəzər dənizinin içərisinə doğru soyuq suyun 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluğunda estakada və 2 yerdə su nasos stansiyası tikilib. Estakadanın möhkəmliyini təmin etmək məqsədilə hər birinin uzunluğu 30 metr olan 1000 ədəd dəmir boru svay 20 metr dənizin dibinə vurulub və betonlanıb.



Qeyd edildi ki, hazırda hər birinin məhsuldarlığı 9000 kubmetr/saat olan 8 nasosdan 2-si ehtiyatda saxlanılmaqla 6 ədədi daim işlək vəziyyətdə olur. Bununla da nasoslar vasitəsilə dənizin 8,5 metr dərinliyindən götürülən aşağı temperaturda 54 min kubmetr su mövcud kanala vurulur.

Stansiyalarda SCADA sistemi tətbiq edilərək, nasos və klapanların avtomatik idarə olunması və rəqəmsal mühafizəsi üçün nəzarət-ölçü cihazları, lokal idarəetmə panelləri, “PLC” idarəetmə sistemi quraşdırılıb. Həmçinin bu idarəetmə sistemi mərkəzi idarəetmə otağındakı monitorlara inteqrasiya edilib ki, bu da nasosların məsafədən işə qoşulmasına və açılmasına, avadanlıqların iş rejimlərinə nəzarət və tənzimlənməsinə, kanalda suyun səviyyəsinə nəzarətə, şandorun avtomatik açılıb-bağlanmasına şərait yaradır.

Prezident İlham Əliyevə “Şimal” Kiçik Su Elektrik Stansiyası haqqında da məlumat verildi.

Diqqətə çatdırıldı ki, Bakının Şüvəlan qəsəbəsində yerləşən, ümumi gücü 800 MVt olan “Şimal” Elektrik Stansiyasının ərazisində “AzərEnerji” ASC tərəfindən daha bir yenilik edilərək, istifadə olunub dənizə axıdılan soyutma suyunun üzərində 300 kVt-lıq kiçik su elektrik stansiyası tikilib. Kiçik su elektrik stansiyasının tikintisi yerli mütəxəssislər tərəfindən aparılıb. Bu stansiya vasitəsilə il ərzində 2,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal ediləcək ki, bu da “Şimal-1” və “Şimal-2” elektrik stansiyalarının təsərrüfat ehtiyaclarını ödəməklə daxili tələbatına sərf olunacaq. Nəticədə, bu günə qədər “Şimal” Elektrik Stansiyasının daxili tələbatına sərf olunan elektrik enerjisi qənaət edilərək ümumi sistemə ötürüləcək.

**AZƏRTAC**

# Hikmət Hacıyev: Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməlidir

**Xankəndidəki separatçıların marionet “liderləri” yerli əhalini öz siyasi ambisiyaları naminə girov saxlayır.**



Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Aİ ölkələrinin, həmçinin Türkiyə, ABŞ və İsveçrə səfirlərinin iştirakı ilə keçirilən görüşdən sonrakı “Twitter” paylaşımında bildirib.

“Teatral səhnələr və yük maşınlarını nümayiş xətrinə Laçın yoxlanış məntəqəsinə gətirməkdənsə, Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməli, öz qüvvələrinin elementlərini Azərbaycanın Qarabağ regionundan çəkməli və qanunsuz marionet rejimin maliyyələşdirməsini dayandırmalıdır”, - Hikmət Hacıyev qeyd edib.

Prezidentin köməkçisi onu da qeyd edib ki, Qarabağdakı bütün qanunsuz qüvvələrin tərksilah edilməsi təmin olunmalıdır.

"Beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolunun istifadəsi və Qarabağın erməni sakinlərinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın siqnal göndərməlidir", - Hikmət Hacıyev əlavə edib.

***

**Razılaşdığımız kimi, Ağdam–Xankəndi yolu bütün növ yüklərin çatdırılması üçün tam istismara verilir.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter” paylaşımında bildirib.

“Amma bu yoldan istifadəyə imkan verməmək, yerli sakinləri girov kimi istismar etmək imitasiyalı malların çatdırılmasını təşkil etmək möhtəkirlik, manipulyasiya və şantajdan başqa bir şey deyil” – Hacıyev bildirib.

**“Xalq qəzeti”**

# Azərbaycan Prezidentinin köməkçisi Hindistanın ölkəmizdəki səfiri ilə görüşüb

**İyulun 26-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan ilə görüşüb.**



Görüşdə Hikmət Hacıyev Ermənistan ilə Hindistan arasında hərbi əməkdaşlığın dərinləşməsi və bu xüsusda son günlər mediada Hindistan istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə foto və videoların yayılmasının Azərbaycan tərəfində narahatlıq doğurduğunu bildirib.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlar apardığı bir vaxtda Hindistanın bu ölkəyə öldürücü silahlar tədarük etməsi Ermənistanın militarizasiyasına və vəziyyətin gərginləşməsinə yol açır və Cənubi Qafqaz regionunda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasına maneələr törədir. Bu, həm də Hindistanın özünün bəyan etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasəti, eləcə də bu ölkənin də təmsil olunduğu Qoşulmama Hərəkatının tarixi “Bandunq prinsipləri” ilə uyğun gəlmir.

Hikmət Hacıyev Hindistan səfirini Azərbaycan tərəfinin ciddi narahatlığının rəsmi Dehlinin diqqətinə çatdırmağa və Hindistanı Ermənistana öldürücü silahların tədarükü ilə bağlı qərarını bir daha nəzərdən keçirməyə çağırıb.

Hindistan səfiri Azərbaycan tərəfinin qaldırdığı məqamın aidiyyəti üzrə çatdırılacağını bildirib və ikitərəfli münasibətlərdə narahatlıq doğuran məsələlərin müzakirəsi üçün iki ölkə arasında dialoqun aparılmasının vacibliyini qeyd edib.

Hikmət Hacıyev Azərbaycanın Hindistan ilə dialoqa hər zaman açıq olduğunu bildirib.

**“Xalq qəzeti”**

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

## CƏDVƏLİ

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror** Kamran Əliyev | Quba | Quba, Qusar, Xaçmaz | 04 |
| 2. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Xızı | Xızı, Siyəzən, Şabran | 07 |
| 3. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | Abşeron | Abşeron, Zəngilan | 07 |
| 4. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Ağsu | Ağsu, İsmayıllı | 09 |
| 5. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | 10 |
| 6. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 11 |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | Ağstafa | Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy | 15 |
| 8. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Şuşa, Zəngilan | 16 |
| 9. | **Baş prokuror** Kamran Əliyev | Samux | Samux, Göygöl, Daşkəsən, Kəlbəcər | 17 |
| 10. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Beyləqan | Beyləqan, Füzuli, Xocavənd | 17 |
| 11. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Goranboy | Goranboy, Naftalan, Xocalı | 18 |
| 12. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Quba | Quba, Qusar | 18 |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Yevlax | Yevlax, Mingəçevir | 18 |
| 14. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Qazax | Qazax, Ağstafa, Tovuz | 18 |
| 15. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Salyan | Salyan, Neftçala | 21 |
| 16. | **Mədəniyyət naziri** Adil Kərimli | Tovuz | Tovuz, Ağstafa, Qazax, Şəmkir, Gədəbəy | 23 |
| 17. | **Baş prokuror** Kamran Əliyev | Qax | Qax, Şəki, Balakən, Zaqatala | 25 |
| 18. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 25 |
| 19. | **Energetika naziri** Pərviz Şahbazov | Gədəbəy | Gədəbəy, Şəmkir, Daşkəsən | 25 |
| 20. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Mingəçevir | Mingəçevir, Yevlax | 25 |
| 21. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Şəki | Şəki, Qax | 25 |
| 22. | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Şabran | Şabran, Siyəzən | 25 |
| 23. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Oğuz | Oğuz, Qəbələ | 26 |
| 24. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Sumqayıt | Sumqayıt, Qubadlı | 29 |
| 25. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Zaqatala | Zaqatala, Şəki, Oğuz, Qəbələ, Qax, Balakən | 30 |
| 26. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | Yevlax | Yevlax, Ucar | 30 |
| 27. | **Ədliyyə naziri** Fikrət Məmmədov | Şamaxı | Şamaxı, İsmayıllı, Qobustan | 31 |
| 28. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Şəki | Şəki, Qax | 31 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Qaçqınlara və məcburi köçkünlərə dəstək davamlı və hərtərəflidir

**Dünən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanovla və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Cənubi Qafqaz ölkələri üzrə klaster nümayəndəliyinin rəhbəri Davron Mühəmmədiyevlə görüşüb.**



Görüşdə qonaqlara Böyük Qayıdışa dair Dövlət Proqramının icrası üzrə komitənin gördüyü işlər, məcburi köçkünlərin geri dönüşünün təşkili, bu istiqamətdə aparılan təbliğat-izahat və təşviqat işlərinin gedişi, köçürülmənin ilkin nəticələri barədə məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyevin tapşırığı ilə məcburi köçkünlərin doğma yurdda təhlükəsizliyinin təmin edilməsi və rahat yaşayışı üçün zəruri şərait yaradılır. Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdış çərçivəsində yeni salınan və bərpa edilən yaşayış məntəqələrinə indiyədək 236 ailə, 1023 nəfər köçürülüb. Məcburi köçkünlər arasında keçirilən sorğular zamanı onların mütləq əksəriyyəti doğma torpaqlara qayıtmaq istəyini ifadə edib.

Sonda Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası arasında Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə dəstək göstərilməsi məqsədilə təşkilatlar, o cümlədən vətəndaş cəmiyyəti institutları arasında tərəfdaşlığın təşkilinə dair Niyyət sazişi imzalanıb.

**Q.QASIMOV,**
**“Xalq qəzeti”**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 238** **Bakı şəhəri, 25 iyul 2023-cü il**

***“Cəbrayıl şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında***

“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Cəbrayıl şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 239** **Bakı şəhəri, 25 iyul 2023-cü il**

***“Siyasi partiyaların qəbul etdikləri ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası Qanununun 24.4.1-ci və 24.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatların təqdim edilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun tətbiqi və “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 625 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 yanvar tarixli 1960 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Siyasi partiyaların qəbul etdikləri ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası Qanununun 24.4.1-ci və 24.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatların təqdim edilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 240** **Bakı şəhəri, 25 iyul 2023-cü il**

***“Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin vəzifə (tarif) maaşlarının məbləğlərinin müəyyən edilməsi haqqında” 2018-ci il 12 aprel tarixli 146-9 nömrəli və “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləği”nin təsdiq edilməsi haqqında” 2010-cu il 4 iyun tarixli 106-6 nömrəli qərarlarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

“Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 3896 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1557; 2022, № 6, maddə 680; 2023, № 1, maddə 135) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Bu Qərar 2023-cü il mayın 23-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan–Qırğızıstan tərəfdaşlığı yeni mərhələdə



**İyulun 26-da Qırğız Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov Çolpon-Ata şəhərində Qırğızıstanın Nazirlər Kabinetinin sədri Akılbek Japarov ilə görüşüb.**

Söhbətdə Azərbaycan ilə Qırğızıstan arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Tərəflər yüksək səviyyədə keçirilən qarşılıqlı səfərlərin və bu səfərlər zamanı imzalanmış sənədlərin əməkdaşlığın möhkəmləndirilməsində və genişləndirilməsində aparıcı rolunu qeyd ediblər.

Çolpon-Ata şəhərində keçirilən Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 5-ci iclasının vacibliyi vurğulanıb.

Görüşdə Azərbaycan–Qırğızıstan qarşılıqlı faydalı tərəfdaşlığının iqtisadi-ticari, investisiya, nəqliyyat-tranzit, kənd təsərrüfatı, mədəni-humanitar, turizm və digər sahələrdə inkişafının perspektivləri müzakirə olunub.

***

**İyulun 26-da Qırğızıstan Respublikasının Çolpon-Ata şəhərində Azərbaycan–Qırğızıstan biznes forumu keçirilib.**

Biznes forumda çıxış edən Ə.Əhmədov bildirib ki, son qarşılıqlı səfərlər zamanı iki ölkənin prezidentləri tərəfindən qarşıya qoyulmuş vəzifələr və müəyyən edilmiş istiqamətlər Azərbaycan və Qırğızıstan sahibkarları üçün mühüm siqnaldır. Azərbaycanın iqtisadi göstəricilərindən danışan Baş nazirin müavini vurğulayıb ki, 2022-ci ildə ölkə iqtisadiyyatı 4,6 faiz artaraq rekord göstəriciyə – təxminən 80 milyard dollara çatıb.

Biznes forumun iştirakçıları dövlət tərəfindən Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması məqsədilə görülən tədbirlər, eləcə də Ələt Azad İqtisadi Zonasının işi haqqında ətraflı məlumatlandırılıblar.

Biznes forum çərçivəsində Azərbaycan Respublikasının və Qırğızıstan Respublikasının investisiya imkanları ilə bağlı təqdimatlar, eləcə də iki ölkənin sahibkarları və investorları arasında bir sıra görüşlər keçirilib.

***

**İyulun 26-da Çolpon-Ata şəhərində Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 5-ci iclası keçirilib.**

İclasda Baş nazirin müavini Əli Əhmədovun başçılıq etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak edib.

Əvvəlcə Baş nazirinin müavini, komissiyanın Azərbaycan Respublikası tərəfindən sədri Əli Əhmədov və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini, komissiyanın Qırğızıstan tərəfindən sədri Bakıt Torobayev məhdud tərkibdə görüş keçiriblər.

Sonra iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələrinin iştirakı ilə birgə hökumətlərarası komissiyanın iclası olub.

Tərəflər Azərbaycan–Qırğızıstan dostluq əlaqələrinin və strateji tərəfdaşlığının hərtərəfli inkişafından məmnunluq ifadə ediblər.

Söhbət zamanı, həmçinin iqtisadi-ticari əlaqələrin müsbət dinamikası məmnunluqla qeyd olunub.

Tərəflər, həmçinin qarşılıqlı investisiya qoyuluşunun təşviqinə tərəfdar olduqlarını bildirib, bu kontekstdə Azərbaycan–Qırğızıstan İnkişaf Fondunun təsis edilməsi prosedurunun başa çatmasını yüksək qiymətləndiriblər.

Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun aktuallığı qeyd olunub. Tərəflər Orta Dəhlizin əlaqələndirilmiş şəkildə rəqəmsallaşdırılması işinin aparılmasına, həmçinin bu nəqliyyat istiqamətinə əlavə yüklərin cəlb olunması məqsədilə cəzbediciliyinin artırılmasına dair razılıq əldə ediblər.

Tərəflər, həmçinin bərpaolunan enerji mənbələri, kənd təsərrüfatı, turizm, mədəni-humanitar və digər sahələrdə ikitərəfli qarşılıqlı münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər.

İclasın yekunu olaraq Ə.Əhmədov və B.Torobayev Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 5-ci iclasının protokolunu imzalayıblar.

**“Xalq qəzeti”**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2023-cü ilin avqust ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini** Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| **Baş nazirin müavini** Əhmədov Əli Cavad oğlu | 2 |
| **Baş nazirin müavini** Mustafayev Şahin Abdulla oğlu | 3 |
| **Aparatın rəhbəri** Məmmədov Rüfət Tofiq oğlu | 4 |
| **İqtisadiyyat şöbəsinin müdiri** Əmiraslanov Azər Kamal oğlu | 7, 23 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri** Rüstəmli Ruslan Rüstəm oğlu | 18 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri** Paşayev Zakir İlqar oğlu | 9, 25 |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri** Qasımlı Xalid Akif oğlu | 10, 28 |
| **Sosial məsələlər şöbəsinin müdiri** Rəhimov Niyazi Süleyman oğlu | 11, 29 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən** Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| **Sənaye və energetika şöbəsinin müdiri** Hacızadə Elşən Mahmud oğlu | 15, 30 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri** **Qasımov Lətif Cəfər oğlu** | 16 |
| **Regionların inkişafı şöbəsinin müdiri** Məcidov İlkin Sabir oğlu | 17 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri** Mustafayev Feyruz Rəvayət oğlu | 8, 24 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri** Pənahov Musa Sədi oğlu | 21 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri** Məmmədov Anar Rəhim oğlu | 22, 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# XİN: Təxribatlardan əl çəkməyi Ermənistan tərəfindən bir daha tələb edirik!

**Xarici İşlər Nazirliyi Azərbaycanın suverenliyi əleyhinə Ermənistanın növbəti təxribatlarına dair bəyanat yayıb. Bəyanatda deyilir:**

“Azərbaycan Respublikasının öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə təsis etdiyi Laçın sərhəd-buraxılış məntəqəsinin mövcudluğunu həzm edə bilməyən Ermənistan tərəfinin ölkəmiz ilə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə “humanitar yük” adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsddir, Laçın sərhəd-keçid məntəqəsinə qarşı növbəti təxribatdır.



Ermənistan tərəfinin Moskvada, o cümlədən hazırkı vəziyyətlə bağlı ətraflı müzakirələrin aparıldığı danışıqlardan dərhal sonra belə bir addım atması bu ölkənin prosesdə səmimi olmadığını, vəziyyəti gərginləşdirməklə beynəlxalq ictimaiyyəti çaşdırmaq niyyətində olduğunu göstərir.

15 iyun tarixində Laçında sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılıq hallarına cəhd edilməsi daxil olmaqla, Ermənistan tərəfinin sözügedən təxribatı, bu ölkənin məkrli təcavüzkar siyasətdən əl çəkmədiyinin bariz nümunəsidir.

Bu təxribat bir daha göstərir ki, Ermənistanın “bölgədə gərgin humanitar vəziyyət” iddiaları bu ölkənin manipulyasiyası və qeyri-qanuni fəaliyyətləri davam etdirmək niyyətindən başqa bir şey deyil.

Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün “Ağdam-Xankəndi” yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə və bu təkliflərin Avropa İttifaqı, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bütün təkliflərə, eləcə də Azərbaycanın qeyd etdiyi yollar vasitəsilə BQXK tərəfindən yüklərin daşınmasına qarşı çıxması, müvafiq humanitar fəaliyyətə maneçilik törədilməsi, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması onların humanitar vəziyyət barədə iddialarının siyasi şantaj olduğunu göstərir. Bu addımlar, humanitar fəaliyyəti siyasiləşdirməklə yanaşı, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasına dair bəyanatlarla ziddiyyət təşkil edir.

Qeyd edilən təxribatda Avropa İttifaqının Ermənistandakı missiyasının və diplomatik korpusun da alət edilməsi, bunun əvvəlcədən planlaşdırılmış addım olduğunu nümayiş etdirib.

Bu kimi təxribatlardan əl çəkməyi Ermənistan tərəfindən bir daha tələb edirik”.

**“Xalq qəzeti”**

# Ağdam–Xankəndi yolu malların daşınması üçün açıqdır



**Ermənistan tərəfindən nəqliyyat vasitələrini cəmləməklə Laçın dövlət sərhədindən keçid məntəqəsində siyasi manipulyasiya və propaqanda məqsədilə təxribata cəhd göstərilir. Azərbaycan Respublikası tərəfindən müxtəlif səviyyələrdə bəyan edilib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərə malların daşınması üçün Ağdam-Xankəndi yolu istifadə oluna bilər.**

Bu sözləri Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

E.Hüseynov qeyd edib: “Yolun texniki və təbii göstəriciləri, xüsusilə işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaratdığı halda, özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən imtina etmələri tamamilə başa düşülən deyil. Burada məqsəd siyasi şou və siyasi möhtəkirlikdən başqa bir şey deyil.

Bir daha bildiririk ki, Ağdam-Xankəndi yolu malların daşınması üçün açıqdır”.

**“Xalq qəzeti”**




# Biz Cənubi Qafqaza sülhü hərb yolu ilə gətirmək istəmirik

## *Azərbaycan beynəlxalq aləmə "Şuşa prosesi"ni də təqdim etdi*

(əvvəli 1-ci səhifədə)

Forumun gedişində Azərbaycan vətəndaşının daha çox eşitmək istədiyi fikirlərin səsləndirilməsinə şahidlik etdik. Məsələn, ABŞ-dan olan jurnalist Ceyms Flunun dövlət başçımıza ünvanladığı "Siz ölkənizlə bağlı ən əsas təhlükələri nədə görürsünüz?" – sualının cavabını bəlkə də təkcə on milyonluq əhalimiz deyil, əlli milyonluq dünya azərbaycanlıları da gözləyirdilər. Cənab Prezidentin cavabının ilk cümləsi də elə bütün soydaşlarımızın ürəyincə idi: "Torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük. Birincisi, daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir... keçmişdə bizə olan təhlükə məhz Ermənistan və onun işğalı ilə bağlı idi. Həmin təhlükə 30 il ərzində məhz buradan qaynaqlanırdı və artıq biz bu təhlükənin öhdəsindən gəlmişik. Ancaq, əlbəttə, biz ayıq olmalıyıq, biz keçmişimizi unutmamalıyıq".

Ancaq həmının diqqətini özünə çəkən başqa bir nüansa da şahidlik etdik. Azərbaycan Prezidenti xatırlatdı ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər: "Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var. O da bizim tariximizdən qaynaqlanır və biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur".

Dövlət başçımızın bütün bunları xatırladandan sonra dediyi fikirlər isə artıq Şuşa ərazisindən və forum çərçivəsindən çıxaraq bədxahlarımızın yaşadığı bütün ünvanlara göndərilirdi: "Ancaq hazırda xaricdən qaynaqlanan təhlükə səviyyəsi o qədər də yüksək deyil. Yeqin, bu, ona görədir ki, biz həmin təhlükənin öhdəsindən gələ bilirik".

Azərbaycan oxucusu üçün diqqət çəkən məqamlardan biri də Birləşmiş Krallıqdan olan Cordan Morqanın müxtəlif beynəlxalq proseslər fonunda Azərbaycan və bütün region üçün hansı perspektivlərin olduğu barədə verdiyi sualın cavabı idi. Dövlət başçımız dedi ki, əslində, Cənubi Qafqazın inkişaf perspektivləri, əsasən, Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Əlbəttə, bu günə kimi bütün beynəlxalq təşkilatlar başa düşürlər ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsi başa çatandan təxminən, üç il keçib, biz getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı".

Dövlət başçımız bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırdı ki, biz Cənubi Qafqaza sülh gətirilməsi üçün lazım olan bütün addımları atırıq. Hətta, qalib tərəf olsaq da, diktə ilə danışmır, qarşı tərəfə həqiqi sülhə çatmaq üçün lazım olan təkliflərimizi göndərmişik. İşğal dövründə beynəlxalq aktorlar bizə deyirdilər ki, xalqların öz müqəddəratının təyinetmə və ərazi bütövlüyünü inteqrasiya etməlisiniz. Ancaq biz deyirdik ki, beynəlxalq hüququn fundamental prinsipləri var, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi bu prinsiplərdir: "Lakin öz müqəddəratının təyin olunması ərazi bütövlüyü prinsipini kölgədə qoymur və nəzərə alsaq ki, Ermənistan artıq müstəqil dövlət kimi mövcuddur".

Forum iştirakçıları Prezident İlham Əliyevin regiondakı son vəziyyət haqqında dediklərini elə həmin gün – iyulun 21-də öz ölkələrinin mətbuat orqanlarına göndərmişdilər. Azərbaycan Prezidenti son vəziyyət barədə danışarkən dedi ki, hazırda üç beynəlxalq tərəf var ki, bu prosesə dəstək olurlar – ABŞ, Rusiya və Avropa İttifaqı: "Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. Çünki düşünürəm ki, Ermənistan son addımını atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır".

Bəli, işğalçı ölkədə artıq qəbul edirlər ki, Qarabağ Azərbaycandır. İndi qalır bu məntiqin sənədlə, imza ilə rəsmiləşdirilməsi. Prezident xəbərdarlıq etdi ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından imtina etsə, sülh sazişinin ilin sonunadək imzalanması kifayət qədər mümkündür: "Lakin bu olmasa… sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək".

Prezident əmindir ki, ABŞ, Avropa İttifaqı və Rusiya kimi vasitəçilərin üçündən birinin fəaliyyətində təkamülü, irəliləyişi görəcəyik. Bütün hallarda biz sülhə hərb yolu ilə nail olmaq istəmirik. Ermənistanın davranışları isə yeni hərbi eskalasiyalara zəmin yaradır. Təbii ki, haqqa qayıtmasalar, özləri peşman olacaqlar.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

# İrəvan siyasi şantaj yolunu seçib

## *Qondarma "DQR" rejimini "demokratik yolla seçilmiş hakimiyyət" adlandıran erməni baş nazir bununla revanşizmdən və siyasi şantajdan əl çəkmədiyini göstərir*

**Ermənistanın istər indiki, istərsə də keçmiş iqtidarları 30 illik "işğalçılıq təcrübələrində" çeşidli siyasi oyunlardan çıxdılar, sivil diplomatiyanı, beynəlxalq hüququ veclərinə də almadılar. Axı, onların qonşularına qarşı yeritdiyi məkrli siyasət həmin sivil qaydalarla bir araya sığmırdı. Yəni, məsələyə bu rakursdan yanaşdıqda İrəvanın bu gün tutduğu mövqenin, sərgilədiyi diplomatiyanın sağlam məntiqdən uzaq olduğu üzə çıxır. Məntiq isə onu deyir ki, Sovet hökumətinin Azərbaycanın daxilində yaratdığı "DQMV" kimi, Ermənistan Respublikasının özü də həmin qırmızı imperiya tərəfindən düzəldilən qondarma dövlətdən başqa bir şey deyil.**



44 günlük müharibədəki rüsvayçı məğlubiyyətindən sonra İrəvanın Bakı ilə, az qala qalib statusunda danışmasının özü bu iqtidarın sülh danışıqlarında siyasi məntiqlə deyil, diplomatik şantajla hərəkət etməsinin göstəricisidir. Yoxsa, Paşinyan hökumətinin böyük güclərin vasitəçilik etdiyi beynəlxalq sülh platformalarında bu qədər qeyri-ciddi davranışını nə ilə izah etmək olar? Hayların baş naziri dünən dediyini bu gün təkzib edir, bir şəhərdə bəyan etdiyinin növbəti görüş yerində tərsini deyərək davamlı olaraq nala-mıxa vurur. Onun bu cür intensiv mövqe dəyişməsindən müttəfiqi sayılan digər aktorlar da bezmiş kimi görünürlər.

### Oğru elə bağırır ki...

Paşinyanın bu günlərdə Fransanın "Le Monde" qəzetinə verdiyi müsahibəsində Azərbaycanın ünvanına səsləndirdiyi fikirlər dediklərimizin əyani sübutudur. Yenə "Laçın dəhlizi", "Dağlıq Qarabağ xalqının blokadaya alınması", "humanitar böhran", Bakının "bölgədə etnik təmizləmə əməliyyatına hazırlaşması" kimi sərsəm iddialar. 30 il ərzində torpağımızı viran qoyan, Hayastanda etdiyi kimi, Qarabağda da etnik təmizləmə aparan erməni daşnak-revanşistləri sülhə gəlmək əvəzinə, "yeni müharibədən" dəm vururlar. "Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hər hansı bir bəhanə ilə şərtləndirməsi qəbul edilməzdir. Bu, iki ölkə arasında münasibətlərin normallaşmasına yönəlmiş səylərə zərbədir və bölgədə gərginliyin saxlanmasına xidmət edir. Ermənistan tərəfi, nəhayət, anlamalıdır ki, bölgədə sülh və sabitliyin bərpa edilməsinə törətdiyi maneçilik səyləri heç bir nəticə verməyəcək". Bu fikirlər Azərbaycan XİN-in Ermənistan baş naziri Nikol Paşinyanın "Le Monde" qəzetinə müsahibəsinə şərhində yer alıb.

Bəli, birmənalı şəkildə deyə bilərik ki, sülh danışıqlarının finala yaxınlaşdığı indiki mərhələsində İrəvan siyasi şantaj yoluna keçib. Hayların baş nazirinin, baş diplomatının, eləcə də spiker və sabiq vəzifə sahiblərinin açıqlamaları bu qənaətə gəlməyə tam əsas verir. Azərbaycanın özünün suveren ərazisində – Laçın yolunda sərhəd postunu qurmasından sonra ermənilər qopardıqları saxta vay-şivənlə, beynəlxalq ictimaiyyətə üfürməyə çalışdıqları feyk-xəbərlərlə nəyəsə nail olacaqlarına ümid edir, reallığı gözardına alıb, xəm xəyallara qapılırlar.

### Yeganə həll yolu reinteqrasiyadır

Fransa qəzetinə müsahibəsində Bakının təhlükəsizliyinə və hərtərəfli təchizatına təminat verdiyi Qarabağ ermənilərinin "blokadada acından qırıldığını" deyən Paşinyan vəziyyətdən yeganə çıxış yolu kimi "Laçın dəhlizinin" açılmasını göstərir. Bu mövzu real vəziyyəti bilən və bilməyən müxtəlif xarici ekspertlərin, beynəlxalq mütəxəssislərin də müzakirə obyektidir. **Bu "problemi" tezliklə həll etməyin mümkünlüyündən danışan politoloq Fərid Şəfiyev** aşağıdakı variantı irəli sürür: "Erməni diplomatları Azərbaycanın ərazi bütövlüyünü tanımaq üçün may ayında baş nazir Nikol Paşinyanın dediklərinə təkcə sözdə deyil, danışıqlar masasında və digər forumlarda əməl etməlidirlər. Xarici işlər naziri Ararat Mirzoyanın son bəyanatı da birmənalı deyil. Qarabağdakı ermənilər, daha dəqiq desək, orada siyasi kürsüləri ələ keçirənlər (Rusiyanın adamları da daxil olmaqla) - reinteqrasiya ilə bağlı razılığa gəlməlidirlər. Bu



zaman Azərbaycanın Qarabağ iqtisadi rayonunda qeyri-qanuni yerləşmiş bütün silahlı erməni qüvvələri çıxarılmalıdır. Bu halda özlərinə yaratdıqları "blokada" avtomatik aradan qalxacaq".

Ekspert yalnız bu variantda Azərbaycanın Laçındakı sərhəd nəzarət-buraxılış məntəqəsində qaydalara riayət ediləcəyini, Aİ Şurasının prezidenti Şarl Mişelin son bəyanatında təklif edildiyi kimi, Ağdam marşrutundan istifadə ediləcəyini mümkün sayır. F.Şəfiyev müqayisə üçün Ukraynada baş verənləri misal gətirir: "Bəzi əcnəbi ekspertlər Azərbaycanı "güc diplomatiyası"nda ittiham edirlər. Təəssüf ki, 30 illik erməni işğalı zamanı ənənəvi diplomatiya işləmədi və digər ölkələrin, o cümlədən "liberal düşərgədə" olanların Yaxın Şərqdə və başqa yerlərdə nə etdiklərinə baxanda görürük ki, "gücsüz diplomatiya" hələ də aciz olaraq qalır. Ukrayna ətrafında baş verənlər bir daha təsdiqləyir ki, ölkənin ərazi bütövlüyünü qorumaq üçün silaha və maliyyə vəsaitinə ehtiyacı var. Yeni "dünya nizamı" icad edilənə qədər əlimizdə olanlarla kifayətlənməliyik".

### "DQR", sən demə, "demokratik yolla seçilmiş hakimiyyət" imiş

Azərbaycan XİN-in Paşinyanın məlum müsahibəsinə şərhində bildirilir ki, baş nazirin bölgənin azərbaycanlı əhalisinə etnik təmizləmə və soyqırımı da daxil olmaqla, ən ağır müharibə və insanlıq əleyhinə cinayətlərin törədilməsi yolu ilə Ermənistan tərəfindən yaradılmış qondarma rejimi "demokratik yolla seçilmiş hakimiyyət" adlandırması Ermənistan rəsmilərinin 30 ilə yaxın davam edən işğalçılıq siyasətindən və əməllərdən əl çəkmədiyinin bariz nümunəsidir. Paşinyanın bu fikirləri, həmçinin onun "Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanındığına" dair bəyanatına tamamilə ziddir".

Bakının Qarabağ bölgəsinin erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam–Xankəndi yolundan istifadəsi təklifindən boyun qaçıran İrəvanın bölgədə "gərgin humanitar vəziyyət" iddiasının reallığı əks etdirmədiyinin vurğulandığı şərhdə Ermənistanın əsl niyyətinin vəziyyətdən siyasi şantaj məqsədilə sui-istifadə olduğu nəzərə çatdırılır. Bəli, Ermənistan iqtidarının son vaxtlar tutduğu mövqeyinin siyasi şantajdan başqa adı yoxdur. Laçın postundan hər gün onlarca erməni sakininin məntəqədən hər iki istiqamətdə maneəsiz keçməsini, Bakının bu yola alternativ marşrut təklif etməsini, guya, görməyən, eşitməyən İrəvan "DQR"ı "demokratik yolla seçilmiş hakimiyyət" olaraq qələmə verməklə, yenə "blokada" qışqırmaqla beynəlxalq ictimai rəylə manipulyasiyanı davam etdirir.

### İlin sonuna qədər vaxtları var

Bir daha təkrar etmək istərdik ki, baş nazir Nikol Paşinyanın Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması, sülh danışıqlarının gedişatı ilə bağlı verdiyi açıqlamalar, bəyanatlar və müsahibələr onun həmin an olduğu coğrafiya qədər fərqli və təzadlıdır. İrəvanda bir söz deyir, Fransada ayrı mahnı "oxuyur", üçtərəfli görüşlərdə isə əsassız və məntiqsiz iddialarla çıxış edir. **Politoloq Yeganə Hacıyava** hesab edir ki, Hayastan baş nazirinin "Le Monde"ya müsahibəsi ilə onun həmin gün İrəvanda mətbuat konfransında səsləndirdiyi açıqlamaları təzad təşkil edir:



"Fransa nəşrinə müsahibəsində Paşinyanın sülh danışıqlarının ümumi ruhuna zidd fikirlər söyləməsi, ilk növbədə, onun riyakarlığından xəbər verir. Əslində, onun saat fərqi ilə bir-birinə zidd mövqe sərgiləməsini oradakı erməni lobbisinin təsirindən, yaxud Fransa hakimiyyətinin özündən qaynaqlanan təxribat deyə bilərik. Həmin Emmanuel Makron Paşinyanın Kişinyov görüşündə Qarabağla bağlı fikirlərindən narazı qaldığını gizlətməmişdi. Bu mənada İrəvanın son davranışlarını Fransanın diktəsi ilə edilən siyasi şantaj kimi də dəyərləndirmək olar.

Ümumiyyətlə, Ermənistan xarici diplomatiyası ikiüzlü diplomatiyadır. Siyasətçiləri də adekvat deyil. Bu ənənə özü ilə bölgəyə həm yeni hədələr gətirir, eləcə də İrəvanın belə buqələmun siyasi xətti regionu yeni böyük risklərlə üz-üzə qoya bilər. Əslində, Paşinyanın bu tip davranışları daha çox kənar təzyiqlərin fəsadı kimi özünü göstərir. Vaşinqton və Brüsel platformalarında sülhə yönəlik müzakirələr Paşinyanın nə söyləməsindən asılı olmayaraq davam edir. Amma, Prezident İlham Əliyevin Şuşadan bəyan etdiyi kimi, Azərbaycan sülh danışıqlarını bu ilin sonuna qədər apara bilər. Sonra Bakı problemi yeni şərtlər və beynəlxalq hüquq çərçivəsində həll etməyə məcbur olacaq".

### Dünya birliyi nə kordur, nə də kar

Qarabağdakı separatçı rejimin dalana dirəndiyi, himəyadarı İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanıyandan sonra "zəncir gəmirdiyi" başadüşüləndir. Onlar Paşinyanın Qarabağın Azərbaycana məxsus olduğunu təsdiqləməsinin nə demək olduğunu da yaxşı anlayırlar. **Tanınmış siyasi şərhçi Fikrət Sadıxov** deyir ki, Xankəndidəki separat-



çıların indiki hoqqabazlığının məqsədi beynəlxalq birliyin diqqətini "bölgədəki humanitar böhrana" cəlb etməkdir:

"Fəqət həqiqət ondan ibarətdir ki, dünya birliyi, böyük güclər, beynəlxalq təşkilatlar görür və başa düşürlər ki, Qarabağ Azərbaycanın suveren ərazisidir. Sadəcə tövsiyələri odur ki, biz etnik ermənilərlə danışıqlar aparaq. Bakı heç vaxt bundan imtina etməyib, dialoqa da özü təşəbbüs göstərib. O ki qaldı, Nikol Paşinyanın Fransa qəzetinə müsahibəsində bizə qarşı məsuliyyətsiz ifadələr işlətməsinə, aydın məsələdir ki, bu, əsasən daxili auditoriyaya hesablanıb. Yəni, baş nazir sübut etməyə çalışır ki, Hayastanın Avropadakı himayədarları Azərbaycana ciddi təzyiq göstərəcəklər və artıq, bu, baş verir. Guya, bunun sayəsində Bakı Qarabağ ermənilərinin təhlükəsizliyinə təminat məsələsinin sülh müqaviləsinə salınması ilə razılaşacaq. Əlbəttə ki, bütün bunlar boş ifadələrdən başqa bir şey deyil".

Ermənistanın indiki, eləcə də keçmiş siyasi, hərbi rəhbərlərinin son vaxtlar intensivləşən təxribatçı iddia və bəyanatlarının, anti-Azərbaycan təbliğatının haradan körükləndirildiyi və hansı məqsədə xidmət etdiyi məlumdur. Amma Azərbaycan XİN-in şərhində deyildiyi kimi, bu səylər heç bir nəticə verməyəcək və İrəvan gec-tez Bakının sülhə aparan şərtlərini qəbul etməyə məcbur olacaq.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Rusiya vasitəçiliyi, Lavrov missiyası: hər şey var – heç nə yoxdur

## Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Moskva təmasına sözardı

**Məlum olduğu kimi, iyulun 25-də Moskvada Azərbaycan, Rusiya və Ermənistanın xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirildi. Görüş barədə ilk təəssürat budur: iki Cənubi Qafqaz ölkəsinin xarici siyasət idarələrinin rəhbərləri Rusiyanın paytaxtına, sadəcə, öz mövqelərini bildirmək üçün yollanmışdılar. Onların nələrdən söz açdıqlarını diqqətə çatdıracağıq. Hələlik isə azacıq da olsa, pozitivə köklənək və Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun görüşdən əvvəlki fikirlərinə nəzər salaq. Çünki, əslində, nikbin əhval-ruhiyyə yalnız onda idi. Görünür, Kremlin çoxdandı reallaşdırmaqda çətinlik çəkdiyi görüşü, belə demək mümkünsə, reallaşdırması S.Lavrovun ovqatına müsbət təsir göstərmişdi.**



### Nikbin preambuladan gerçəkliklərə doğru

Bəli, Rusiya vasitəçilik anlamında ortaya yenilik qoymadı. Lavrov ölkəsinin Cənubi Qafqazda sülh və sabitliyin qorunmasındakı marağını ifadə etdi. Bildirdi ki, Kreml Ermənistan, Azərbaycan və Rusiya arasında bütün üçtərəfli sazişlərə bütövlükdə və qarşılıqlı münasibətlərdə hörmətlə yanaşılmasının və həyata keçirilməsinin tərəfdarıdır. Bu, o deməkdir ki, Bakı və İrəvanın təmsilçiləri dünyanın harasında görüşürlərsə-görüşsünlər, əsas kimi həmin sazişləri götürməlidirlər.

Lavrov Azərbaycan və Ermənistan XİN rəhbərləri – Ceyhun Bayramov və Ararat Mirzoyanla birlikdə təmasdan əvvəl, onlarla təkbətək danışıqlar apardığını vurğuladı və dedi: "İndi isə üçümüz Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin arasında Qarabağ probleminin həlli ilə bağlı sazişlərdən irəli gələn vəzifələrin, daha geniş mənada Bakı ilə İrəvan arasındakı münasibətlərin tam normallaşması vəzifələrinin həyata keçirilməsi üçün səylərimizi davam etdirəcəyik".

Göründüyü kimi, Lavrovun düşüncəsində Qarabağ problem kimi qalır. Halbuki, konseptual baxımdan bu yanaşma yolverilməzdir. Ona da diqqət yetirək ki, Qərb tənzimləmə xətti Bakı–İrəvan nizamlamasını prioritet götürür. Orada ayrıca Qarabağ seqmenti yoxdur. Rusiya isə köhnə dalğalara köklənir. Əlbəttə, niyyətini yeni ab-havaya uyğunluq görüntü ilə pərdələməyi də yaddan çıxarmır. Bunun izahını verəcəyik...

Moskvanın üçtərəfli sazişlərə bütövlükdə və qarşılıqlı münasibətlərdə hörmətlə yanaşılmasını və praktikada tətbiqini müdafiə etdiyini bildirən Rusiyanın baş diplomatı Azərbaycan və Ermənistan XİN rəhbərlərinin dəvətinin daha bir məqsədinə də aydınlıq gətirib. Deməli, Rusiya Qarabağ probleminin həllinə, necə deyərlər, mükəlləf imiş, amma: "Bu gün mən sizi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqlar prosesinin hazırda nə yerdə olduğu barədə fikir mübadiləsi aparmağa dəvət etmək istərdim. Biz ekspert potensialımızdan və burada təmsil olunan dostlarımızla yaxşı münasibətlərimizdən yararlanaraq, prosesin koordinasiyasında hər cür kömək göstərməyə hazırıq. Ümidvarıq ki, bütün bu məsələləri praqmatik, konstruktiv atmosferdə müzakirə edəcəyik".

Deməli, sülh müqaviləsi üzrə danışıqlar kənarda gedəcək, Rusiya onu müzakirə edəcək. Belə yanaşma olurmu? Moskva bunu hansı haqla edəcək? Əlbəttə, özü üçün haqq müəyyənləşdirmək Rusiya üçün problem olmayıb. Yenə də problem deyil və Rusiya istəyir ki, tərəflər Qərb platformasında aparılan danışıqların detallarını bölüşsünlər. Nə üçün? Bir halda ki, Moskva üçtərəfli bəyanat məntiqi ilə hərəkət edir, o zaman beynəlxalq ictimai rəydə ikitərəfli danışıqlar, yəni birbaşa təmas kimi qəbul edilən Brüssel və ya Vaşinqton formatı ona hansı səbəbdən maraqlı olmalıdır?

### Rusiya vasitəçidir, yoxsa tərəf?

Digər yandan, Rusiya üçtərəfli razılaşmalara əsasən, özünü Azərbaycan–Ermənistan münasibətlərində birbaşa tərəf qismində görürsə, deməli, hər bir halda, onun Qərb formatı ilə razılaşmayacağı aşkardır. Hesab edək ki, müharibəyə bu şəkildə son qoyan Kremldir. Amma bu amilin onu tərəfə çevirməsi nə dərəcədə qanunidir? Bu kimi suallar ritorikdir, çünki cavabı bəllidir.

Rusiyanın Cənubi Qafqaz siyasi akvatoriyasında müəyyənləşdirdiyi oyun var və ölkə istəmir ki, mövcud platforma kənar qüvvələrin nəzərində, yaxud marağında olsun. Bu yerdə Lavrovun diqqətə çatdıracağımız növbəti fikirləri əhəmiyyətini itirir. Yaxud həmin fikirlərin səmimiliyinə inanmaq mümkünsüzləşir. Rusiyanın XİN rəhbəri deyir ki, Moskva Azərbaycanın və Ermənistanın sülh prosesinə digər vasitəçiləri də cəlb etməkdə maraqlı olduğunu başa düşür və Bakı ilə İrəvan arasında razılığa gəlinməsi yönündə atılan addımları alqışlayır. Alqışlayırsa, üçtərəfli bəyanatı üstün tutmaq nə üçündür? Axı, həmin üçtərəfli sənədlərdə iki Cənubi Qafqaz ölkəsi arasındakı münasibətlərin tənzimlənməsi baxımından fundamental heç nə yoxdur. Bu razılaşmalar daha çox atəşkəsin əldə edilməsi və möhkəmləndirilməsi xəttini rəhbər tutur. Qərb formatı isə əsaslı sülh üçün daha təkmil və fundamental platforma təəssüratı yaradır.

Kremlin üçtərəfli Bəyanatı ehkamlaşdırmaq məqsədilə düzənlədiyi görüşün özünə gəlincə, bu yerdə əvvəldə vurğuladığımız pozitivi bir kənara ataq və görək ki, Azərbaycanın və Ermənistanın XİN rəhbərləri Moskvada nələrdən danışdılar. Başlayaq ölkəmizin Xarici işlər naziri Ceyhun Bayramovun fikirlərindən.

### Bayramovun dedikləri

C.Bayramov Lavrovla ikitərəfli və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla üçtərəfli görüşlərdə Bakı–İrəvan normallaşma xəttinin müzakirəyə çıxarıldığını vurğulayıb. Yəni, Rusiya XİN rəhbərinin "Qarabağ müzakirəsi" məntiqi dövriyyədən çıxır. Nazir C.Bayramov bölgədəki mövcud vəziyyət kontekstində Azərbaycanın regionda sülh və təhlükəsizliyin yaranması naminə atdığı addımlara qarşı Ermənistan tərəfindən hədə və qeyri-qanuni fəaliyyətlərin törədildiyini, habelə təyyarələrin uçuşuna maneələrin yaradıldığını, hərbi təxribatlar gerçəkləşdirildiyini diqqətə çatdırıb. O, bölgədə humanitar vəziyyətə dair səsləndirilən iddiaların tamamilə əsassızlığını, bu iddiaların siyasi manipulyasiya olduğunu da bildirib.

C.Bayramovun fikirlərindəki daha bir diqqətçəkən məqam onun İrəvanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdakı öhdəliklərə zidd fəaliyyət göstərdiyini söyləməsidir. Azərbaycanlı nazir mövcud xüsusda Laçın yolundan hərbi məqsədlər, habelə Azərbaycanın təbii sərvətlərinin qanunsuz daşınması üçün sui-istifadə hallarına yol verildiyini bildirib və deyib ki, belə təmayüllərlə mübarizə aparmaq Azərbaycanın suveren hüququdur. XİN rəhbəri bu məqsədlə ölkəmiz tərəfindən Laçında nəzarət-buraxılış məntəqəsinin təsisini zəruri tədbir kimi dəyərləndirib. O məntəqənin ki, orada erməni sakinlərin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlanan keçidi üçün şərait yaradılmışdı. Lakin Ermənistan iyunun 15-də ərazidə təxribat törətdi və bununla da həmin erməni sakinlərin keçidinə maneçilik yarandı.

Görüşdə C.Bayramovun üzərində dayandığı başlıca məqam Azərbaycanın erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təklifləri irəli sürdüyünü vurğulamasıdır. Məlumdur ki, erməni tərəfi buna qarşı çıxır, məkrli niyyətlər güdür və humanitar vəziyyət barədə iddiaları siyasi şantaj vasitəsinə çevirir. Buna qarşılıq ölkəmiz özünün suveren ərazilərində yaşayan ermənilərin reinteqrasiyasına müdaxilə cəhdlərinə son qoyulmasını, ərazi bütövlüyümüzün sözdə və əməldə qeyd-şərtsiz təsdiqlənməsini, Qarabağdakı erməni silahlı qüvvələrinin oradan çıxarılmasını zəruri sayır.

Bəli, nazir C.Bayramov Moskvada bunları vurğulamaqla faktiki olaraq Rusiyanın ön plana daşımağa çalışdığı üçtərəfli bəyanata əməl olunmadığını bildirib. Ən əsası isə o, Ermənistanın Moskvanın deyil, Qərbin vasitəçiliyinin gündəmində yer alan məsələlərdən boyun qaçırdığını da diqqətə çatdırıb. Məsələn, humanitar yardımların daşınması üçün "Ağdam-Əsgəran" yolunu götürək. Bu, o yoldur ki, Rusiyanın Qarabağdakı adamı sayılan Ruben Vardanyan həmin yola beton plitələr düzdürərək, oradan humanitar yardımların daşınmasının qarşısını almışdı. Yeri gəlmişkən, R.Vardanyanın saxta etiraz aksiyasının Rusiyanın Xarici İşlər Nazirliyinin Azərbaycan və Ermənistan liderlərinin 15 iyul Brüssel görüşü ilə bağlı bəyanatından dərhal sonraya təsadüf etməsi qəribədir. Bir çox siyasilər Rubenin bu hərəkətini Moskvanın Qərb formatına etirazı kimi qiymətləndirirlər...

### Mirzoyan isə dedi ki...

Əslində, Ermənistan XİN rəhbəri Ararat Mirzoyan Moskvada ölkəsinin üçtərəfli bəyanata məhəl qoymadığını bir daha göstərdi. Qarabağda erməni hərbi birləşmələri qalırsa, deməli, sənəd faktiki olaraq işləmir. İrəvan təmsilçisi bunu deyil, Laçın dəhlizinin bağlanmasını və Qarabağın erməni əhalisinin, guya, blokadaya alınmasını həmin bəyanata zidd məqam kimi qabardır. Maraqlıdır ki, Mirzoyan ölkəsinin təmsilçilərinin Azərbaycan nümayəndələri ilə görüşlərinin və danışıqlarının kifayət qədər intensiv xarakter daşıdığını, bəzi məsələlərdə konkret nəticələrin əldə olunduğunu, tərəflərin qarşılıqlı razılığa gələ biləcəkləri perspektivin yarandığını bildirib. O, fikirlərini diqqətə çatdırarkən, Qərb tənzimləməsi xətti üzərinə fokuslanıb. Mövcud müstəvidə problemli məqamların da qaldığını deyən erməni nazir əlavə edib ki, həmin məqamlarla əlaqədar mövqelər bir-birindən çox uzaqdır.

Əlbəttə, A.Mirzoyan Moskvadakı çıxışında Qarabağda humanitar böhran şousu ilə bağlı "sentimental zəngulələr" vuraraq manipulyasiyaya yol verməyi yaddan çıxarmayıb. Onun çıxışındakı başlıca məqam isə budur ki, Ermənistan bütün platformalarda və sahələrdə danışıqlara sadiq qalacaqdır. Deməli, İrəvan Moskvaya sərfəli trayektoriyanı özü müəyyənləşdirəcəyinə dair mesajını çatdırır.

### Lavrov hələ "sülhə gəlmir", lakin Qərbə ilişir

Bu yerdə görüş zamanı S.Lavrovun Rusiyanın Cənubi Qafqazda sülh və sabitlikdə maraqlı olduğunu vurğulamasının hansı əhəmiyyət daşıdığını müəyyənləşdirmək çətindir. Belə nəticəyə gəlmək mümkündür ki, Kreml nazirlərin digər platformalardakı danışıqlar məntiqini vacib saymır. Hərçənd, Rusiyanın baş diplomatı ölkəsini Qərb tənzimləmə xəttinin bir seqmentinə kökləməyi də yaddan çıxarmır. Necə deyərlər, tutar qatıq, tutmazsa... ayran onsuz da var.

Lavrov deyir ki, "bizim səylərimiz həm Ermənistan–Azərbaycan sərhədində vəziyyətin sabitləşməsinə, həm də humanitar problemlərin həllinə, iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına, insanlar, vətəndaş cəmiyyətləri və politoloqlar arasında kommunikasiyanın inkişafına yönəlib". Göründüyü kimi, Rusiyanın baş diplomatı sülh müqaviləsindən söz açmır. Təxminən belə: hər şey yaxşı olsun, ancaq qeyri-müəyyən qalsın. Hərçənd, bir azdan diplomatın "sülhə gəldiyini" də görəcəksiniz.

Hələlik onu deyək ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmayacaqsa, qeyri-müəyyənlik davamlı xarakter alacaq. Burada Lavrovun vətəndaş cəmiyyəti institutlarının xalqlar arasında yaxınlıq yaratmasına dair ritorikası tam mənasızdır, haqqında söz açdığımız qeyri-müəyyənliyin davamına hesablanıb. Vaxtilə Qərb dairələri də xalq diplomatiyası yolu ilə Azərbaycan-Ermənistan münasibətlərini tənzimləmək istəyirdilər. Lakin belə cəhdlər uğursuz olurdu. Daha doğrusu, uğursuz olacağı əvvəlcədən bilinən cəhdlər ölkəmizi torpaqlarının itirilməsi reallığı ilə barışdırmağı hədəf seçsə də "istəklər" gerçəkliklə uzlaşmadı. "Planlar" baş tutmadı, Ermənistan özünün məkrindən qalmadı və nəticədə 44 günlük müharibə baş verdi. İndi Rusiya Qərbin keçmişdəki təcrübəsinə baş vurur. Onun sülh çağırışları yalnız dilucu səslənir.

### Lavrovun ikinci nikbinliyi və ya üçtərəfli bəyanat var, döndü yoxdu

S.Lavrov Azərbaycan və Ermənistan XİN rəhbərləri ilə üçtərəfli görüşdən əvvəl açıqlama ilə çıxış etdiyi kimi, görüşdən sonra da bu təmasın yekunlarına dair geniş şərh verməyi unutmur və yenə pozitivə köklənir. O, həmkarları – C.Bayramov və A.Mirzoyanla faydalı danışıqlar apardığını vurğulayır.

Rusiyanın XİN rəhbəri yuxarıda sadaladıqlarımızı faydalı sayırsa, deməli, fantaziyası böyükdür. Hərçənd, Lavrovun sonrakı fikirləri göstərir ki, onun pozitivliyi yalnız ölkəsinin mövqeyini rahat çatdırmağa əsaslanır. Əlbəttə, Kreml üçün ən böyük dividend Azərbaycan və Ermənistanın XİN rəhbərlərinin Moskvaya gəlib çıxmasıdır. Axı, A.Mirzoyanın müxtəlif bəhanələrlə Rusiyanın paytaxtına yollanmaqdan yayındığı hallar az omayıb.

Kremlin baş diplomatının sözlərinə görə, Rusiya sülhməramlılarının verdiyi hesabatları nəzərə alaraq nazir həmkarlarının diqqətinə Qarabağ əhalisinin hüquqlarının təmin olunması naminə təxirəsalınmaz addımların atılmasının zəruriliyini çatdırıb. Söhbət ərzaq, dərman, ilkin tələbat malları, elektrik enerjisi və qazla fasiləsiz təminatdan gedir və Lavrovun fikrincə, bu, sadə ermənilərin maraqlarına uyğundur. Amma onun uyğunluq üçün üçtərəfli bəyanat məntiqini ortaya atması anlaşılan deyil. Nəzərə alaq ki, həmin bəyanatda Qarabağ ermənilərinin təminatı ilə bağlı heç bir müddəa yoxdur. Qarabağ Azərbaycanındırsa və bu, Ermənistan rəhbərliyi tərəfindən qəbul edilirsə, o zaman bölgənin erməni əhalisinin qayğısına qalmalı olan tərəf məhz dövlətimizdir. İndi baş verən proseslər isə onu göstərir ki, buna qarşı çıxan qüvvələr var. Halbuki Lavrovun şəxsində Rusiyanın qəbul etmək istəmədiyi Qərb tənzimləmə xəttində Bakının öz əhalisinə yardım göstərməsi məntiqi əsas götürülməkdədir. Moskva bunun üzərinə, ümumiyyətlə, gəlmir. Onun bölgə ilə bağlı istinad mənbəyinin Rusiya sülhməramlıları olması isə o deməkdir ki, Kreml yenə köhnə şakərindədir.

Digər tərəfdən, Lavrov bildirir ki, azərbaycanlı və erməni həmkarı ilə 44 günlük müharibədən sonra imzalanmış üçtərəfli bəyanatlarda əksini tapmış müddəalardan biri kimi, regionda maneəsiz hərəkətin təmin edilməsi, nəqliyyat və iqtisadi kommunikasiyaların bərpasını nəzərdən keçirib. Yəqin, həmin sənədlərdə iki Cənubi Qafqaz ölkəsi arasında sülh müqaviləsinin imzalanmasından söz düşmədiyindən, indi də məsələ lazımi səviyyədə qoyulmur. Halbuki, hazırda Azərbaycan-Ermənistan gündəmində 2023-cü ilin sonunadək həmin sülh müqaviləsinin reallaşması məntiqi dayanmaqdadır. Söhbət Qərb tənzimləməsi xəttindən gedir. Belə qənaətə gəlirik ki, hazırda Rusiya durumu daha əvvələ aparmaq niyyətindədir.

### Sülh "stansiyası", amma qapılar açılmır

İndi isə gələk anonsunu verdiyimiz məqama – Lavrovun sülh gündəliyinə. Ümumən aşkar görünür ki, Rusiyanın XİN rəhbəri sülh müqaviləsi məsələsinin üzərinə yalnız xırda eyhamlarla gəlməyi üstün tutur. O, tədricən bir az da mətləbə yaxınlaşması ilə diqqət çəkir. Çünki müqavilənin qaçılmazlığını görür. Buna görə də deyir: "Ümid edirik ki, bu müqavilənin imzalanması ermənilərin və azərbaycanlıların Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə üçtərəfli görüşləri zamanı başlatdıqları səylərin altından xətt çəkəcək böyük danışıqlar prosesinin kulminasiya nöqtəsi olacaqdır".

Bəli, Putin amili üzərində Rusiyanın rolunun vurğulanması həm də o deməkdir ki, Azərbaycan və Ermənistan arasında yekun razılıq yalnız Moskvanın sərəncamındadır. Amma Rusiya XİN-in rəhbəri sülh yolunun asan başa gəlməyəcəyinin anonsunu verir. Həll edilməli çoxlu mürəkkəb və vacib məsələlərin qaldığını vurğulayır. Diplomatın fikrincə, onlardan ən həssası keçmiş sovet respublikalarının rəhbərləri tərəfindən imzalanmış 1991-ci ilin Alma-Ata Bəyannaməsinə tam uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir. Əlbəttə söhbət bu kontekstdə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi və sülh müqaviləsi üzərində işin aparılmasından gedir .

### Ermənistan Qarabağ ermənilərini inandırmalı imiş

Lavrovun sözlərindən gəlinən qənaət budur ki, Ermənistan hakimiyyəti Qarabağ ermənilərini Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn prinsiplərə əməl edəcəyinə inandırmaq istiqamətində səylər göstərəcək. Sən demə, bu səylər ikincilərin Azərbaycan nümayəndələri ilə görüşə razılaşmağın zəruriliyini mümkün qədər tez başa düşmələri üçündür. Sanki 1988-ci ildə Qarabağda avantürist niyyətlər baş qaldıranda bölgənin erməni sakinlərinin mövqeyi nəzərə alınmışdı. Əlbəttə, nəzərə alınmamışdı. Bəlkə, indi onlardan nə isə soruşan var? Qətiyyən yoxdur. Deməli, Lavrov nəyi nəzərdə tutur?

Rusiya XİN rəhbəri onu da bildirir ki, Azərbaycan öz ərazisində yaşayan şəxslərə münasibətdə qarşılıqlı əsasda zəmanətləri verməyə hazırdır. Ermənilər də bütün konvensiyaların Ermənistanda yaşayan vətəndaşlara tətbiqi ilə bağlı eyni şeyi etməkdə problem görmürlər.

Əlbəttə, Lavrovun məsələləri bu qədər açıq qoyması bir ilkdir. Amma məsələnin qoyuluşuna diqqət yetirin. Ermənistan Qarabağ ermənilərini Azərbaycanın səmimiyyətinə inandırmalıdır. Bu, nə deməkdir? Axı, biz görürük ki, İrəvan bölgənin erməni əhalisinin hüquq və təhlükəsizliyini manipulyasiya predmetinə çevirir. İstəyir ki, bu məqam sülh müqaviləsində əksini tapsın. Azərbaycanın bununla razılaşmadığı gün kimi aydındır. Mövcud durumda Moskvadakı müzakirələrin faydalı keçdiyini söyləmək nə dərəcədə doğrudur?

Vurğuladığımız kimi, Rusiyanın baş diplomatı çətinliyi gizlətmir və dərhal da diplomatik manevr edərək başqa, yəni ənənəvi məsələyə keçir. O deyir ki, hazırkı mərhələdə ən yaxşı nəticə regionda nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması, Rusiyanın, Azərbaycanın və Ermənistanın baş nazirlərinin müavinlərinin rəhbərlik etdikləri üçtərəfli işçi qrupunda razılığın əldə olunmasıdır. Lavrovun fikrincə, bu kontekstdə nəqliyyat sektorunda artıq təkcə regional deyil, həm də daha geniş xarakter daşıyan layihələrin həyata keçirilməsi üçün də perspektivlər açılacaqdır.

### Xalq diplomatiyasından sülhə yaxud, qeyri-müəyyənliyin "Lavrov formulu"

Bəli, göründüyü kimi, Lavrovun dili ilə ara-sıra sülh müqaviləsindən söz açan Rusiya özünün əvvəldə də ayrı-ayrı fraqmentlərini diqqətə çatdırdığımız gündəliyinə qayıtdı. Yəni, Kremlin baş diplomatı əvvəlcə əsas məsələdən – sülh müqaviləsindən danışdı, ardınca ənənəvi məsələlələrə keçid aldı. Yeri gəlmişkən, Rusiya XİN rəhbəri azərbaycanlı və erməni həmkarı ilə görüşdən əvvəl də olduğu kimi, sonra da həmin məqamları sadaladı. Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələri və siyasi ekspertlər arasında dialoqun bərpasından danışdı. Hətta parlamentarilər arasında da üçtərəfli dialoqun başlanmasının zəruriliyinə toxundu.

Nəhayət, Lavrovun çıxışının ən əsas hissəsindən bəhs edək. O, tərəflərin Rusiya ilə yanaşı, digər vasitəçilərin də xidmətlərindən istifadəyə maraq göstərməsinin anlaşılan olduğunu yenidən bildirərkən müəyyən qədər xəbərdalıq dilində təxminən belə dedi: erməni və Azərbaycan xalqlarının mənafeyindən uzaq deyil, mətbuatda gözəl başlıqlar üçün, geosiyasi və daxili siyasi mülahizələr naminə süni razılaşmaların tətbiqinə cəhdlər göstərilməməlidir.

S.Lavrovun "süni razılaşmalar" dedikdə nəyi nəzərdə tutduğu aydındır. Deməli, Rusiya Azərbaycanın və Ermənistanın Qərb vasitəçiliyindən bəhrələnməsinə razı deyil. Razıdır, o halda ki, həmin formatdakı görüşlərdə nəticə əldə olunmasın, boş-boş danışıqlar getsin. 30 ilə yaxın müddətdə getdiyi kimi. Yəni, Rusiya XİN rəhbərinin təbirincə desək, mürəkkəb məsələlər qismində dəyərləndirimiş məqamlar müzakirə predmetinə çevrilməsin. Belədə sual yaranır: Rusiya iyulun 25-də XİN rəhbərlərinin görüşünü nə üçün təşkil etmişdi?

Cavab axtarmayaq, çünki bu sual da əvvəlkilər kimi ritorikdir...

***Əvəz CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Orta Dəhliz Şərqlə Qərbi qovuşduran mötəbər logistik şəbəkədir

## Bu marşrutla respublika ərazisindən yükdaşıma 4,8 faiz artaraq 60 milyard 761 milyon tona çatıb




**Ölkə Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında nəqliyyat sektorunun əhəmiyyətinin getdikcə artdığını diqqətə çatdıraraq bəzi məhdudlaşdırıcı tədbirlərin yeni nəqliyyat marşrutlarının açılmasına səbəb olduğunu bildirib.**

Bu baxımdan əlverişli coğrafi vəziyyətin ölkəmiz üçün əlavə imkanlar yaratdığını vurğulayan dövlətimizin başçısı deyib: “Biz nəqliyyat sektorunun inkişafı ilə bağlı uzun illər ardıcıl siyasət aparırıq və öz ərazimizdə infrastrukturu, demək olar ki, əvvəlki dövrün tələbatına uyğun olaraq tam modernləşdirmişik. Amma bu gün tələbat daha da artır. Çünki yüklər artır, nəqliyyat marşrutları, qeyd etdiyim kimi məhdudlaşır. Həm Şimaldan Cənuba və əks istiqamətdə, həm də Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımaların artması göz önündədir. Burada da Azərbaycan çox etibarlı tərəfdaş kimi çıxış edir və öz qonşuları ilə sıx təmasdadır, qonşuların nəqliyyat problemlərinin həlli üçün öz köməyini də əsirgəmir”.

İndiki geosiyasi şəraitdə Orta Dəhliz xüsusi əhəmiyyət daşıyır. Bu, özünü daha çox Azərbaycan ərazisindən, yəni Xəzər dənizi ilə daşınan yüklərin həcminin getdikcə artmasında göstərir. Ona görə də respublikamızın nəqliyyat və logistika imkanları davamlı şəkildə genişləndirilir. Bakı Dəniz Limanının imkanlarının 25 milyon tona çatdırılması nəzərdə nəzərdə tutulur. Dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyədə qurulur.

Beləliklə, respublikamız artıq beynəlxalq aləmdə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri ilə yanaşı, Orta Dəhliz marşrutu ilə də mühüm mərkəz kimi tanınır. Azərbaycanın tərəfdaşları ilə birlikdə bu nəqliyyat infrastrukturunun tam ötürücülük gücü ilə fəaliyyətini gerçəkləşdirmək üçün praktik işlər görülür. Hökumət tərəfindən dəhlizlərin inkişafına mühüm vəsait ayrılması, avtomobil və dəmir yollarının müasir səviyyədə qurulmasının diqqətdə saxlanılması, eyni zamanda, bütün bu infrastrukturun əsaslı təmirinin aparılması həmin dəhlizin işinin canlandırılmasını şərtləndirir.

Avrasiya bazarında yükdaşımaların dəyişməsi və yükdaşıma şirkətlərinin Orta Dəhliz istiqamətində miqrasiyası bu prosesi sürətləndirib. Avropa İttifaqı (Aİ) tərəfindən bu yaxınlarda Rusiyaya qarşı sanksiyaların 11-ci paketinin tətbiqi, o cümlədən Rusiyanın qoşqulu və yarımqoşqulu yük maşınları ilə yüklərin daşınmasına tamamilə qadağa qoyulması da Orta Dəhlizə marağı artırıb.

Xatırladaq ki, Aİ-nin 11-ci paketi çərçivəsində yeni anti-Rusiya sanksiyaları, müəyyən mal və texnologiyaların üçüncü ölkələr vasitəsilə təkrar ixracının qarşısının alınması ilə yanaşı, Rusiya Federasiyasının nəqliyyat və logistika infrastrukturunun beynəlxalq fəaliyyətinə bir sıra məhdudiyyətlər daxil edilib. Bura yuxarıda vurğuladığımız kimi, Qərbin məhdudiyyətlərindən yayınmağın qarşısını almaq üçün Rusiya qoşqulu və yarımqoşqulu yük maşınları ilə yüklərin daşınmasına tam qadağa tətbiq olunub. Belə halda isə ötən ildən həyata keçirilən uzunmüddətli tədbirlər beynəlxalq tranzitin Şimal Dəhlizindən alternativ marşrutlara keçirilməsinə yönəlib ki, bunlardan ən mühümü Orta Dəhliz hesab edilir.

Bu qərar təkcə Rusiya yükdaşıyıcılarına deyil, həm də qonşu ölkələrə, o cümlədən ağır yük maşınlarının marşrutları cənub-qərb istiqamətində– Xəzər dənizi vasitəsilə sürətlə hərəkət edən Mərkəzi Asiya dövlətlərinin ekspeditor şirkətlərinə, eləcə də Cənubi Qafqaz və Türkiyə vasitəsilə istiqamətlənən tranzitə aiddir. Həmçinin son dövrlərdə Rusiya və İranı ölkəmizdən tranzitlə birləşdirən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə avtomobil daşımalarının intensivliyi də eyni sürətlə artır.

Belə bir şərait təbii ki, ölkə ərazisindən yük avtomobilləri ilə yükdaşımaların həcminin artmasına müsbət təsir göstərib. Bu, cari ilin I yarımilində də müşahidə olunub. Belə ki, respublika üzrə avtomobil nəqliyyatı ilə yüklərin daşınması 4,8 faiz artaraq 60 milyard 761 milyon tona çatıb. Eyni zamanda, bu ilin ötən aylarında Orta Dəhliz üzrə avtomobil nəqliyyatı ilə yüklərin tranziti Aİ-də getdikcə daha çox tərəfdar qazanıb. Bundan başqa, iyun ayında TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyi tərəfindən Litvadan Polşaya, daha sonra Slovakiya, Macarıstan, Rumıniya və Bolqarıstana multimodal marşrut üzrə yarımqoşqulu yük maşını traktorları ilə yüklərin pilot daşınmasını təşkil edən təşəbbüs irəli sürülüb.

Yeri gəlmişkən, sözügedən istiqamətdə yükdaşımaların həcminin artırılmasını Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM və ya Orta Dəhliz) Assosiasiyası da diqqətdə saxlayır. Assosiasiya hazırda bu məqsədlə Sinqapurla birlikdə Orta Dəhlizin rəqəmsallaşması konsepsiyasını yaradır. Qurumun baş katibi Haydar Abdikerimovun sözlərinə görə, indi dəhlizin detalizasiyası üzrə işlər görülür və cari ilin iyunundan dəhlizə qoşulacaq ölkələrin (Sinqapur, Bolqarıstan və Litva) bu marşruta qoşulacağı nəzərdə tutulur.

Haydar Abdikerimov bildirir ki, Orta Dəhlizin rəqəmsallaşması üzrə işlər Sinqapurun aparıcı şirkətləri ilə həyata keçiriləcək. Bu konsepsiya iştirakçılar arasında məlumat mübadiləsinin yaxşılaşmasına, həmçinin sərhəd keçidlərinin sürətləndirilməsinə səbəb olacaq. Sərhəd keçidlərinin sadələşdirilməsindən danışan assosiasiyanın baş katibi qeyd edib ki, bu məsələ ilə bağlı Dəmir Yolları Əməkdaşlıq Təşkilatı (DYƏT) və BMT-nin struktur bölmələri ilə birgə layihələr reallaşdırılır.

Onu da qeyd edək ki, yaxın beş il ərzində Orta Dəhlizin infrastrukturuna və proseslərin səmərəliliyinin artırılmasına 5 milyard avroya yaxın investisiya qoyulacağı nəzərdə tutulur. Marşrutun Mərkəzi Asiya istehsalçılarının Türkiyə, Şimali Afrika və Cənubi Avropa ölkələri istiqamətindəki dünya bazarları ilə inteqrasiyasında mühüm rol oynayacağı gözlənilir. Marşrutun əsas məqsədi isə Çin, Qazaxıstan kimi ölkələrdən, Xəzər dənizi ilə Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna, Polşa, Rumıniya ərazisindən yük tranzitinin təmin olunmasından ibarətdir.

Burada diqqətçəkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Avropanın aparıcı logistika şirkətləri, xüsusən Danimarkanın “Maersk”, Avstriyanın “Rail Cargo Group”, Finlandiyanın “Nurminen Logistics” və Niderlandın “Rail Bridge Cargo” şirkətləri Orta Dəhlizə yüklər cəlb edir. Dünya İqtisadi Forumunun yaydığı məlumatda isə Çinlə Avropa arasında əmtəə dövriyyəsinin ildə 600 milyard dollar dəyərində qiymətləndirildiyi bildirilir.

Həmin məlumatda, eyni zamanda, Mərkəzi Asiya, Xəzər dənizi və Cənubi Qafqaz ərazisindən keçən Orta Dəhlizin Çinin Sakit Okean sahilindən Avropaya ən qısa yol olduğu, Şanxaydan Avropaya yüklərin daşınmasının bu marşrutla 10 gün çəkə biləcəyi də vurğulanır. Həmçinin belə bir səmərəliliyə malik marşrut vaxta qənaətlə yanaşı, tranzit ölkələr arasında ticarətə təkan verə, regional inteqrasiyanı möhkəmləndirə və iqtisadi diversifikasiyaya səbəb ola bilər.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

# Ağdam–Ağcabədi yolu yenidən qurulur

## Bu şose 20-dən artıq yaşayış məntəqəsini birləşdirir

**Respublika əhəmiyyətli Ağdam-Hindarx-Ağcabədi avtomobil yolu yenidən qurulur. Artıq yolun 0-21-ci kilometr hissəsində torpaq işləri yekunlaşıb.**



Yenidənqurma işləri çərçivəsində xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılıb, hissə üzrə suötürücü boruların quraşdırılması həyata keçirilib. Hazırda bu hissədə hamarlayıcı layın tikintisi işləri görülür. Yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrli dairəvi borunun, düzbucaqlı su keçidlərinin və alt keçidlərin, həmçinin 3 avtomobil körpüsünün inşası aparılacaq.

Xatırladaq ki, 45 kilometr uzunluğa malik Ağdam-Hindarx-Ağcabədi avtomobil yolu Ağdam və Ağcabədi rayonlarını birləşdirməklə həmin rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edir. İkinci texniki dərəcəyə uyğun yenidən qurulan yolun torpaq yatağının eni 15, hərəkət hissəsinin eni isə 2 zolaqdan ibarət olmaqla 7,5 metr təşkil edəcək.

# 2025-ci ilədək 4-5 faizlik iqtisadi artım gözlənilir

**Azərbaycan Mərkəzi Bankı ölkədə ümumi daxili məhsulun (ÜDM) 2025-ci ilədək 4-5 faiz səviyyəsində artacağını proqnozlaşdırır.**



Bankın idarə heyətinin sədri Taleh Kazımovun bildirdiyinə görə, bu müddətə qədər qeyri-neft sektorunda artım 5-6 faiz səviyyəsində gözlənilir. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, həmçinin davamlı olaraq artan digər makroiqtisadi göstəricilər bu cür proqnozlar verməyə imkan yaradır.

Xatırladaq ki, Dünya Bankı 2023-cü il üçün Azərbaycanda ÜDM artımını 2,8 faiz, 2024-cü il üçün isə 2,6 faiz səviyyəsində proqnozlaşdırır. Bu il üzrə nominal ÜDM 111,6 milyard manat olaraq qiymətləndirilir.

***“Xalq qəzeti”***

# Xəzərdən Avropaya “mavi axın”

## TAP-ın genişləndirilməsi ölkəmizin qaz ixracı imkanlarını artıracaq

**Zəngin neft-qaz ehtiyatlarına malik Azərbaycan uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. “Köhnə qitə”nin təbii qazla təminatına mühüm töhfələr verən ölkəmiz artıq özünü etibarlı enerji tərəfdaşı kimi təsdiqləyib. Xatırladaq ki, Azərbaycan 2020-ci il dekabrın 31-də Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya qaz ixracına başlayıb.**

TAP boru kəməri Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanır. Boru kəmərinin ümumi uzunluğu 878 kilometrdir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda Azərbaycan TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçıları təbii qazla təmin edir.

XXI əsrin nəhəng enerji dəhlizi olan Cənub Qaz Dəhlizinin son seqmenti sayılan TAP boru kəməri Avropa ölkələrinə qaz idxalı marşrutlarını şaxələndirməyə geniş imkanlar yaradır. Artıq bir sıra ölkələr interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə TAP boru kəməri ilə daxili qaz şəbəkələrini əlaqələndirməyə maraq göstərirlər. Bu da Azərbaycan qazının Avropanın dərinliklərinə qədər gedib çatmasına imkan yaradır. Bu baxımdan Yunanıstan–Bolqarıstan (IGB) interkonnektorunu xüsusi qeyd etmək olar. Xatırladaq ki, bu birləşdirici kəmər 2022-ci il oktyabrın 1-dən qazın kommersiya tədarükünə başlayıb.

2023-cü ilin birinci yarısında Yunanıstan–Bolqarıstan interkonnektoru ilə 669 milyon kubmetr qaz nəql olunub. Bu barədə boru kəmərinin operatoru olan ICGB şirkətindən məlumat verilib. ICGB-nin icraçı direktorları Teodora Georgiyeva və Corc Satlasın mətbuata açıqlamalarına görə, cari ilin ilk yarısında boru kəməri ilə nəql edilmiş qazın həcmi 7,8 milyon meqavat-saat olub. Bu isə 669 milyon kubmetrə ekvivalentdir. Bu arada, Azərbaycan qazını Bolqarıstana çatdıran Yunanıstan–Bolqarıstan birləşdirici boru kəməri vasitəsilə kommersiya tədarükünün başlandığı vaxtdan 2023-cü ilin iyunun axırınadək nəql olunan qazın həcmi də açıqlanıb. Bolqarıstan mətbuatının yaydığı məlumata görə, hesabat dövründə kəmərlə, təqribən, 1 milyard 90 milyon kubmetr qaz nəql edilib. Bu da elektrik enerjisi ekvivalentində 12,7 meqavat-saata bərabərdir.

Məlumatda qeyd olunur ki, 185 kilometrlik Yunanıstan–Bolqarıstan birləşdirici boru kəməri Bolqarıstanı Trans-Adriatik Qaz Boru Kəməri ilə (TAP) birbaşa əlaqələndirir. İndiyədək Yunanıstan–Bolqarıstan interkonnektorunun 22 interkonnektor istifadəçi şirkəti qeydiyyata alınıb. Qeyd edək ki, IGB-nin illik ümumi nəqletmə gücü 3 milyard kubmetrdir. Bunun da 1,57 milyard kubmetri 25 ilə qədər davam edən uzunmüddətli müqavilələr əsasında artıq bron edilib. Yerdə qalan imkanlar müxtəlif müddətlərlə Avropanın “PRISMA” və “RBP” kimi 2 iri ticarət platformalarına çıxarılır. Şirkətdən verilən məlumata görə, illik imkanlar üzrə hərraclar uğurla yekunlaşdıqdan sonra IGB-nin növbəti qaz ili (2023-2024-cü illər) üzrə ümumi imkanlarının artıq 80 faizi bron edilib.

Avropada təbii qaza tələbatın getdikcə artması ilə əlaqədar olaraq gələcəkdə birləşdirici boru kəmərinin illik ötürmə gücünün 5 milyard kubmetrə çatdırılması planlaşdırılır. Yeri gəlmişkən, boru kəmərinin istismarına görə cavabdehlik daşıyan və ötürmə sisteminin müstəqil operatoru olan ICGB infrastrukturun buraxılış imkanlarının ildə 5 milyard kubmetrədək artırılmasında bazarın maraqlı




olub-olmadığını öyrənmək məqsədilə bu yaxında buraxılış imkanlarının artırılması prosedurunu başladıb.

Bolqarıstana təbii qaz nəqlinin şaxələndirilməsi üçün ilk marşrut olan IGB tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabətə mühüm töhfə verir ki, bu da ölkədəki müəssisələr və daxili istehlakçılar üçün qiymətlərin optimallaşdırılmasının vacib şərtidir. Qeyd edək ki, Bolqarıstanın “Bulgargaz” şirkəti Azərbaycan qazının nəqlinə dair Şahdəniz konsorsiumu ilə müqavilə imzalayıb. Müqaviləyə əsasən, Bolqarıstan şirkəti “Şahdəniz-2” layihəsi çərçivəsində ildə 1 milyard kubmetr qaz alacaq.

Avropaya daha çox “mavi yanacaq” tədarük edilməsi üçün Trans-Adriatik Qaz Boru Kəmərinin genişləndirilməsinə ehtiyac var. Artıq bu ideya da gerçəkləşmək üzrədir və yaxın vaxtlarda layihə ilə bağlı fiziki işlərə start veriləcək. Təsadüfi deyil ki, iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa keçirilən Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyev bununla bağlı deyib: “Bu gün Azərbaycan üç il əvvəl inşa edilən boru kəmərinin genişləndirilməsi ilə məşğuldur. Nəyə görə? Çünki tələbat artır. TAP boru kəməri 10 milyard kubmetrə hesablanmışdısa, 20 milyard kubmetrə qaldırılmalıdır. TANAP 16-dan 32-yə qaldırılmalıdır. Bu, əvvəllər bizdən gözlənilmirdi. Lakin indi gözlənilir və vəziyyət dəyişib” .

Dövlətimizin başçısı boru kəmərinin genişləndirilməsinin vacibliyini ölkəmizin zəngin qaz ehtiyatlarına malik olması və hasilatın ildən-ilə artması ilə əlaqələndirib. Hasilatın artması isə Azərbaycan qazına beynəlxalq marağı getdikcə gücləndirir. Bu da öz növbəsində ölkəmizin ixrac imkanlarının genişləndirilməsinə səbəb olur. Elə son illərin ixrac dinamikası da bunu təsdiqləyir. Belə ki, 2021-ci ildə Azərbaycandan Cənub Qaz Dəhlizi və genişləndirilmiş Cənubi Qafqaz boru kəməri ilə Gürcüstan, Türkiyə və Avropa bazarlarına19 milyard kubmetr qaz ixrac edilibsə, bir il sonra bu göstərici 22 milyard kubmetrədək artıb. Bu il isə Azərbaycandan 24,5 milyard kubmetr “mavi yanacaq” ixracı planlaşdırılır ki, bunun da 12 milyard kubmetri Avropaya nəql olunacaq.

TAP-ın icraçı direktoru Luka Skyepatti bildirib ki, konsorsium bu ay 2023-cü ilin yeni bazar sınağını işə salacaq. Sınağın qeyri-məcburi mərhələ ilə başlayacağını bildirən icraçı direktor deyib ki, TAP-ın ilkin uzunmüddətli imkanları layihənin icrasına investisiyaların dəstəklənməsi üçün 25 illik uzunmüddətli sazişlər əsasında yükgöndərən tərəfindən ayrılıb. Onun sözlərinə görə, TAP-ın imkanlarını ildə təqribən 20 milyard kubmetrədək genişləndirmək mümkündür. L.Skyepatti TAP-ın genişləndirilməsi üçün mütəmadi bazar sınaqlarının açıq, şəffaf və qeyri-diskriminativ formada həyata keçirildiyini qeyd edib. Bazar sınaqlarının ilk mərhələsinin uğurlu olduğunu vurğulayan icraçı direktor bildirib ki, ikinci məcburi mərhələnin 2023-cü ilin dekabrında başladılacağı gözlənilir.

Yeri gəlmişkən, beynəlxalq ekspertlər hesab edirlər ki, Trans-Adriatik Qaz Boru genişləndirilməsi, həm də gələcəkdə yeni həcmdə hidrogen və digər bərpaolunan qazların nəqlinə kömək edə bilər. TAP-ın Yunanıstan üzrə nümayəndəsi İonnis Maris bildirib ki, boru kəməri Avropaya 22 milyard kubmetrdən çox təbii qaz idxal edib. TAP-ın Avropanın enerji keçidinə töhfə verməklə bağlı da öhdəlik götürdüyünü vurğulayan nümayəndə deyib ki, kəmər artıq ilk səviyyəni genişləndirməyə nail olub.

***Mirbağır YAQUBZADƏ, “Xalq qəzeti”***

# Koçaryan–Sarkisyan cütlüyünün təşəbbüsü iflasa uğrayır

**Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 23-də Azərbaycanın 86,6 min kvadratkilometrdə ərazi bütövlüyünü tanıdığını, bura Qarabağın da daxil olduğunu bəyan etməsindən sonra onun əleyhinə böyük "cəbhə" formalaşıb. Bu "cəbhə"yə əsasən ölkənin keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın başçılıq etdikləri müxalifət düşərgəsi, daha doğrusu, Qarabağ klanı, onların hakimiyyətdə olduğu dövrdə vəzifədə işləmiş Vardan Oskanyan, habelə 2018-2019-cu illərdə Ermənistan milli təhlükəsizlik xidmətinin direktoru olmuş, hazırda parlamentdəki "Şərəfim var" fraksiyasının liderlərindən olan Artur Vanetsyan... kimi şəxslər daxildir.**



Bu qaragüruha daxil olanlar son zamanlar daha da fəallaşıb və yeni təşəbbüsə başlayıblar. Söhbət Ermənistanda Qarabağla bağlı referendum keçirilməsi tələbi ilə ictimai təşəbbüs irəli sürülməsindən və bu məqsədlə imzatoplama kampaniyasının başlamasından gedir. "Azad Artsax – referendum" qanunvericilik təşəbbüsünün üzvləri Ermənistan Respublikası adından Qarabağın "öz müqəddəratını təyinetmə hüququ"ndan imtinaya cəhd edən istənilən hökumətin Ermənistanın konstitusiya quruluşuna qarşı çıxdığını vurğulayıblar. Təşəbbüsün müəllifləri Qarabağdan imtinanın kriminallaşdırılması prosesini başlatdıqlarını və vətəndaşların dəstəyinə ehtiyac duyduqlarını bildiriblər. Başqa sözlə desək, "Hayakve" qanunvericilik təşəbbüsü Ermənistan Respublikası adından Qarabağın başqa dövlətin bir hissəsi kimi tanınmasına (?) yönəlmiş istənilən hərəkəti cinayət saymağı təklif edir.

Konstitusiya hüququ üzrə mütəxəssis Aram Orbelyan təşəbbüslə bağlı deyib ki, Ermənistan konstitusiyasında səsvermə hüququna malik ən azı əlli min vətəndaşın vətəndaş təşəbbüsü kimi parlamentə qanun layihəsi təklif etmək hüququ təsbit olunub: "Söhbət qanunvericilik prosesinin öhdəlik hissəsi kimi vətəndaş təşəbbüsündən gedir. Yəni, əgər 50 min Ermənistan vətəndaşının imzasının toplandığı təsdiqlənən kimi o, qanun layihəsi kimi qəbul olunması üçün parlamentin gündəliyinə daxil ediləcək". O, əlavə edib ki, Ermənistan vətəndaşları bununla ölkə tarixində ilk dəfə qanun layihəsinin müəllifi olacaqlar: "Biz bu qərara baş nazir Nikol Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa hazır olması barədə bəyanatından sonra gəlmişik. Əsas məqsədimiz beynəlxalq strukturlara çatdırmaqdır ki, vətəndaşlar baş nazirin mövqeyinə qarşıdırlar və onun dediyinin əksinə olaraq, Qarabağı, anklavları Azərbaycana vermək istəmirlər".

Qeyd edək ki, imzaların toplanması Ermənistanın bütün inzibati rayonlarında aparılır. İmza toplanılması üçün 60 gün (iyunun 21-dən avqutsun 19-dək) vaxt müəyyən olunub. Ancaq tələb olunan 50 min imzanın toplanılması indiyədək mümkün olmayıb. Təşəbbüsün icraçıları onu "vətəndaş təşəbbüsü" adı altında gizlətsələr də, onun arxasında dayanan əsas qüvvə keçmiş prezident Serj Sarkisyanın rəhbəri olduğu Respublika Partiyasıdır. Ona bu prosesdə Robert Koçaryanın qurub yaratdığı, lakin rəhbərliyi Seyran Ohanyanın etdiyi parlamentdəki "Hayastan" fraksiyası dəstək verir.

***

Sadə ermənilər isə müxalifətin bu təşəbbüsünə qarşıdırlar. "Araratnyus"un jurnalistləri İrəvan sakinlərinin bu mövzuya münasibətini öyrənməyə çalışaraq, onlardan imzatoplamada iştirak edib-etməyəcəklərini soruşublar. Çoxu yekdilliklə "yox!" cavabını verib. Bu cavablar Ermənistan əhalisinin radikal-revanşist kəsimi təşkil edən şəxslərə münasibətini üzə çıxarmaq baxımından əhəmiyyət daşıyır. İrəvan sakinlərindən biri deyib: "Əlbəttə, yox. Ona görə ki, müxalifəti ciddi qəbul etmirəm. Onların hərəkətləri sadəcə, gülüş doğurur. Siz deyirsiniz ki, onlar Qarabağı xilas etmək istəyirlər? Qoy, ora getsinlər və xilas etsinlər". Digər bir erməni isə bildirib: "Onlar utanmazdırlar, başa düşürsünüz, utanmaz. Mən nəyə görə onların kələk klubunda iştirak etməliyəm?! Məgər normal və ağıllı insan buna gedərmi? Bu biveclərin başqa işi-gücü yoxdur. Ona görə də bu cür çirkin işlərlə məşğuldurlar. Siz deyirsiniz ki, onlar Qarabağı xilas etmək istəyirlər... Qoy, onlar özlərini xilas etsinlər. Qarabağ bəhanəsi ilə hakimiyyətə gəlməyə cəhd etmək bəsdir. Ermənistanın bütün bəlalarında məhz keçmiş hakimiyyətlər təqsirkardır. Amma onlar öz cinayətlərini Paşinyanın üstünə yükləyiblər. Onlar çirkin yollarla hakimiyyətə gələ biləcəklərinə ümid etməməlidirlər. Bu, heç zaman baş verməyəcək".

Digər bir İrəvan sakini isə deyib: "Bu, müxalifətin ölkəyə xəyanətidir. Məgər Qarabağın Azərbaycanın tərkibində olub-olmayacağını "Hayakve" müəyyən edəcək?! Onların heç nəyi həll etmədiyi dəqiqdir. Niyə bu insanlar Qarabağ haqqında əvvəllər düşünmürdülər? Onlar öz zamanlarında (iqtidarda olanda-S.H.) ancaq ölkəni qarət etməklə və oğurluqla məşğul idilər. İndi bu metodla Qarabağı xilas etmək istəyirlər?! Bu, yalandır".

***

Qarabağ ətrafında yaranmış duruma sadə ermənilər kimi politoloqlar, ictimai-siyasi şəxslər də öz münasibətlərini bildirirlər. Nəinki N. Paşinyana yaxın olanlar, hətta müstəqil şəxslər də müxalifətin bu təşəbbüsünün iflasa uğrayacağını vurğulayırlar. Politoloq Robert Gevondyan deyib ki, "Hayakve" təşəbbüsünün arxasında parlament müxalifəti dayanıb və onlar bununla daxili problemi həll etməyə çalışırlar: "Bu təşəbbüs üçün yetərli imzalar toplanılsa belə, "Hayakve" parlamentdə iflasa uğrayacaq. Onu da qeyd etməliyəm ki, hazırda Qarabağda daxili siyasi mübarizə gedir. Bu da məhz onların özünə ziyan vurur".

Parlamentdəki "Vətəndaş razılaşması" fraksiyasının deputatı Akop Aslanyan isə "24nyus.am"a müsahibəsində deyib: "Mən bir dəfə demişəm, yenə təkrar edəcəm. Qarabağ 70 il ərzində Azərbaycanın tərkibində olub. Bütün bu illər ərzində insanlar orada sakit yaşayıblar və heç kim onları narahat etməyib. Bəs bu gün nə baş verib? Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyan da öz vaxtlarında Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu tanıyıblar. Keçmiş hakimiyyətlər hər zaman Azərbaycana söz veriblər ki, onların torpaqlarını qaytaracaqlar. Bəs niyə qaytarmayıblar? Biz müharibəni bu gün uduzmamışıq. Biz 1994-cü ildən məğlub olmağa başlamışıq. Uzun illər keçmiş hakimiyyətlər dövlətçiliyimizi, ordumuzu, iqtisadiyyatımızı, təhsili məhv ediblər. Onlar ölkəni tamamilə qarət ediblər, acınacaqlı quberniyaya çeviriblər. Bu gün Arayik Arutyunyan oturaq aksiya keçirir. Bu necə olur? Qoy, əvvəlcə istefa versin, sonra bu cür işlərlə məşğul olsun. O, bununla heç nəyə nail ola bilməyəcək. Heç bir ölkə onu Qarabağ məsələsində dəstəkləməyəcək".

A.Aslanyan daha sonra deyib ki, son illərdə Ermənistanı bir milyona yaxın insan tərk edib: "Bu, olduqca böyük rəqəmdir. İnsanlarda qorxu əmələ gəlib. Onlar yeni müharibədən ehtiyat edirlər. Çoxları uşaqlarının hərbi əməliyyatların qurbanı olmasını istəmirlər. Onlar müharibədə məğlub olmuş ölkədə yaşamağı ar bilirlər. Ona görə də buradan qaçırlar".

Erməni politoloq Armine Adibekyan isə Paşinyanın əleyhinə olan fikirlər söyləyib: "Siz soruşursunuz ki, bütün ölkə Qarabağın Azərbaycanın tərkibində olmasına razıdırmı? Mən kinayə ilə deyirəm ki, hə, əlbəttə! Nikol Paşinyan bu məsələdə heç nəyi həll etmir. O, prosesin subyekti deyil və etiraz etmək hüququnu itirib. Ona hər şeyi diktə etmək olar və o, onları icra edəcək. Böyük oyun gedir. Bu oyunda Ermənistanın maraqları qurban verilir. Paşinyan və onun komandası bunlara görə cavabdehdir. Yeni müharibə başlaya bilər və biz buna hazır olmalıyıq. Bizim vəzifəmiz ordunu gücləndirmək və sərhədləri möhkəmləndirmək olmalıdır. Ancaq bundan əvvəl Paşinyanı və onun komandasını ciddi cəzalandırmaq lazımdır".

***

Ermənistanda olduğu kimi Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan haylar arasında da qovğa yaşanır. Bu istiqamətdə sonuncu hadisə separatçıların "parlamentinin sədri" Artur Tovmasyanın "istefa" verəcəyini açıqlaması olub. "Nyus.am" saytı bildirib ki, Tovmasyan "istefa"sını iyulun 27-də "parlamentin" "növbədənkənar sessiyasında" elan edəcək. "Sessiya" baş separatçı Arayik Arutyunyanın təşəbbüsü ilə çağrılıb. "İstefa"nın səbəbi Tovmasyanın səhhəti ilə əlaqələndirilsə də, onun son proseslər fonunda baş verməsi diqqətdən yayınmır. Görünür, Tovmasyan vəziyyətin həlledici qərarlar qəbul etmək tələb etdiyini düşünərək, məsuliyyətdən yayınmağa çalışır. O da bildirilir ki, artıq bu "vəzifə"nin kimə təklif olunacağı barədə qərar qəbul edilib.

İyulun 26-da A.Arutyunyanın, guya, keçirdiyi oturaq aksiyanı dayandırdığı açıqlanıb. O, bu barədə "Facebook" səhifəsində məlumat verib. Əlavə edib ki, aksiya nəticəsində müəyyən nəticələr (?) əldə etdiyinə inanır.

Separatçıların "dövlət naziri" Qurgen Nersisyan isə Rusiyanın yanaşmasını dözülməz adlandırıb. Nersisyan sosial şəbəkə hesabında yazıb: "Rusiyanın daim bəhanələr gətirmək və fəlakətli vəziyyətin (?) substantiv həllini təmin etməmək yanaşması dözülməz hala gəlir. Ermənistan hakimiyyəti bəyan edib və bəyan etməkdə davam edir ki, beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi dialoqu zəruridir. "Artsax xalqı" da başa düşür ki, dialoq danışmaq, müzakirə aparmaq, hüquqlarımızı qorumaq, regionda sülhün bərqərar olmasına töhfə vermək üçün lazımdır. Amma Rusiya xarici işlər nazirinin dünənki bəyanatından belə məlum olur ki, Ermənistan dialoq zamanı müzakirə olunacaq məsələlərin spektrini artıq müəyyən edib, yaxud İrəvan Azərbaycanın təklif etdiyi müzakirə mövzusu ilə razılaşıb".

Göründüyü kimi, separatçılar, guya, artıq hər zaman onları dəstəkləyən Rusiyadan da narazı olduqları barədə gözə kül üfürürlər. Onlar mövcud gərginliyin başa çatmasının yeganə yolunun Azərbaycana iqtisadi və sosial reinteqrasiyadan keçdiyini nə qədər tez anlasalar, bir o qədər yaxşı olar.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

**Ekspert rəyi**



**Rizvan HÜSEYNOV, hərbi-siyasi şərhçi**

– Ermənistanda müxalifətdə olan partiyaların təşəbbüsü ilə imzatoplama kampaniyasının keçirilməsi, yaxud digər tədbirlər heç bir effekt verməyəcək. Onlar bununla həm özlərini, həm də erməni cəmiyyətini aldadırlar. Çünki buna bənzər tədbirlər əvvəllər də baş tutub. Heç bir səmərəsi olmayıb. Keçmişdə hakimiyyətdə olanlar isə hər zaman olduğu kimi yenə də öz mənafelərini düşünürlər. Onların erməni xalqına zərrə qədər də faydası dəyməyib. İndi bu yolla gündəmə gəlmək istəyirlər. Ancaq unudurlar ki, onların dövranı keçib. Dövlət başçımızın dediyi kimi, "Miatsum" kitabı, separatizmin kitabı bağlanıb. Müstəqillik xülyası statusun dalınca gedib. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı lazım olan yerə göndərmişik. Qarabağ ermənilərinin dünyaya haray-həşir salmağının heç bir mənası yoxdur. Yeganə yol Azərbaycan qanunlarına tabe olmaq, ölkəmizin normal vətəndaşlarına çevrilməkdir. Yalnız bu halda onların bütün çətinlikləri öz həllini tapacaq.

**REPLİKA**

# Ağıldan bəlanın fəsadları

*Məğlubların öz aralarında müqəssir axtarması təbiidir, amma...*



**...Hayların təqsirsizi olmur. Hətta, əli müsəlman qanına bulaşmamış ermənilər belə hamılıqla "miatsum" epidemiyasına yoluxur və bu faktın özü cinayət əməlinə bərabər tutula bilər.**

44 günlük müharibədə məğlubiyyətin səbəblərini araşdıran istintaq komissiyası hökumətin silah-sursata xərclədiyi vəsaitin şəffaflığını yoxlayır. Hayastan parlamentindəki "Şərəfim var" fraksiyasının katibi Tiqran Abramyan hələ müharibəyə qədər büdcədən ordunun silahlanmasına ayrılmış 608 milyard dramın hara "uçduğu" barədə yazıb. O, bununla bağlı müdafiə nazirliyinə rəsmi sorğu göndərdiyini, 2018-2020-ci illərdə hansı silahların, nə miqdarda və hansı qiymətə alındığını aydınlaşdırmaq istədiyini ərz edir. Amma, bildirir ki, nazirlik bir aydan çoxdur onun sorğusuna cavab vermir. Abramyan, əslində, problemin nazirliyin "məxfi informasiyanın" açıqlanmasını istəməməsində deyil, hökumətin verdiyi əmrlə bağlı olduğunu deyir. "Şərəfim var"ın katibi qeyd edir ki, 2018-2020-ci illərdə Paşinyan hökumətinin böyük həcmli sövdələşmələri "Su-30" qırıcı təyyarələrinin və İordaniyadan "Osa-AK" HHM komplekslərinin satın alınması ilə bağlıdır.

Abramyan iddia edir ki, həmin dövrdə hökumətin bəyan etmədiyi digər satınalmalar da olub və o vəsait baş nazirin təqdim etdiyi rəqəmlərdə öz əksini tapmayıb. Hayastan parlamentinin üzvünün gəldiyi qənaət maraq doğurur: komissiyada elan olunan rəqəmlərin reallığa heç bir aidiyyəti yoxdur, yaxud, bir qayda olaraq, manipulyativ xarakter daşıyır. Yəni, bütün bu fəaliyyət imitasiyadan başqa heç nə deyil. Erməni deputat bir az da irəli gedərək soydaşlarının, ümumiyyətlə, onilliklər boyu "Böyük Ermənistan", "Dağlıq Qarabağ", "erməni soyqırımı" uğrunda apardığı mübarizəsini sadəcə, imitasiya hesab edir. Buna görə də bu gün saxta, yalançı mübarizənin fəsadlarını yaşadıqlarını etiraf edən Abramyan hazırkı hakimiyyət üçün də böyük miqdarda dezinformasiyanın cəmiyyətə üfürülməsinin vacib amil olduğunu yazır: "Guya onlar təslim olmamaqdan ötrü əllərindən gələn hər şeyi etdilər, amma alınmadı".

Bəli, mübarizəni imitasiya etməyin bədəli ağır olur, Tiqran Abramyan! Düz yazırsan, belə saxtakarlıq böyük ərazilərin, çoxlu insan həyatının itirilməsinə gətirib çıxarır. Amma bundan daha betəri mübarizəni imitasiya edən xalqın sağlam düşüncədən məhrum olması, ağlını itirməsidir. Təəssüf ki, sənin təmsilçisi olduğun millət neçə əsrdir yoluxduğu və sağalmaz mərəzə çevrilmiş ağıldan-bəladan əziyyət çəkir. Adamın Allah şəfanızı versin deməyə də dili gəlmir...

***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

# Hindistan Ermənistanı silahlandırır, İran ona imkan yaradır

**İranın Nurdüz sərhəd-buraxılış məntəqəsindən Ermənistana avtomobil karvanının hərəkəti qeydə alınıb.**

Bu barədə Caliber.az saytı videogörüntülər yayıb. Kadrlardan görünür ki, daşınan yük görünməməsi üçün çadırla örtülüb. Sayt iki müstəqil mənbəyə istinadla dəqiqləşdirib ki, silahların tədarükçüsü Hindistandır.

Bu ilin mayında Hindistanın yeni səfiri Sridxaran Madhusudhananın etimadnaməsini qəbul edən Prezident İlham Əliyev onun diqqətinə çatdırıb ki, bu gün Ermənistanda ölkəmizə qarşı ərazi iddialarını davam etdirən revanşist qüvvələr baş qaldırır. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını bildirən dövlət başçısı qeyd edib: "Əgər doğrudan da Ermənistan Azərbaycan ilə sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır?" Azərbaycan Prezidenti vurğulayıb ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.



Sayt qeyd edir ki, Yeni-Dehlidə bunun hansı nəticələr doğuracağını anlamaya bilməzlər: Ermənistana silah-sursat, ölümcül silahlar, o cümlədən "Pinaka" zenit-raket sisteminin və uzaqmənzilli silahların tədarükü hətta sərhəd bölgəsindən uzaqda yerləşən dinc Azərbaycan şəhərlərinə birbaşa təhlükə yaradır...

Məqalədə deyilir: "Hindistan gur səslə beynəlxalq hüquqdan danışır, lakin Cənubi Qafqazda açıq-aşkar hərbi münaqişənin qızışdırılması və ölkələrin ərazi bütövlüyünə hörmətsizlik siyasətini dəstəkləyir. Eyni zamanda, o, bütün bunların Bandunq konfransının və Hindistanın da üzvü olduğu Qoşulmama Hərəkatının prinsiplərinə zidd olduğunu da nəzərə almır. Bundan başqa, axı məhz Nehru QH-nin yaradılmasının təşəbbüskarlarından biri olub..."

Tədarüklərin İrandan keçməsinə gəldikdə, sayt qeyd edir ki, cənub qonşusu artıq çoxdandır ki, Azərbaycana münasibətdə öz riyakarlığı, ikiüzlülüyü və düşmənçiliyi ilə bizi təəccübləndirmir: "Uzunsaqqallı fanatiklər 45 ildir bağırırlar ki, bütün dünyada müsəlmanların maraqlarının müdafiəçiləri qismində çıxış edirlər, Azərbaycanla qardaşlıq əlaqələrindən danışırlar, amma artıq çoxdan Ermənistanla ağız-ağıza veriblər və bu səbəbdən heç bir şübhə yeri qoymadan öz ərazisini xaricdən silah göndərilməsi üçün təqdim edirlər".

**"Xalq qəzeti"**

# Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi: yarım ildə 2 minədək müraciət

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzində ilin birinci yarısında yerli özünüidarəetmə sahəsində görülmüş işlərin müzakirəsinə dair müşavirə keçirilib.**



Mərkəzin rəisi Rəhman Məmmədov dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq vətəndaşların, o cümlədən müharibə iştirakçılarının və şəhid ailələrinin müraciətlərinə baxılması və onların qəbulu işinin daim diqqətdə saxlanıldığını, altı ayda bələdiyyə fəaliyyəti ilə bağlı 2 minədək müraciətə baxıldığını və 190-dan çox vətəndaş qəbul edildiyini, müraciətlərdə qaldırılan məsələlərin həlli ilə bağlı zəruri tədbirlərin görüldüyünü vurğulayıb.

Qeyd edilib ki, ilin birinci yarısında nazirlik tərəfindən ötən ilin eyni dövrü ilə müqayisədə 22 faiz çox – 49 mindən artıq bələdiyyə aktı üzrə inzibati nəzarət həyata keçirilib.

Vurğulanıb ki, nazirlik tərəfindən bələdiyyə sədrləri barəsində 23 inzibati xəta protokolu tərtib edilərək məhkəmələrə göndərilib. İnzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar zamanı 17 halda ciddi qanun pozuntuları aşkarlanaraq toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib.

Qeyd edilib ki, hesabat dövründə ölkə üzrə torpaq və əmlak vergisindən yerli büdcələrə daxilolmaların həcmi 13 faiz artaraq 8,2 milyon manatdan çox olub.

İclasda yarım il ərzində bələdiyyələrlə iş mərkəzi tərəfindən regional ədliyyə idarələrinin və Ədliyyə Akademiyasının imkanlarından istifadə edilməklə 3400 bələdiyyə üzvü və qulluqçusu ilə 140-dək maarifçilik tədbiri keçirildiyi, müxtəlif aktual məsələləri əhatə edən 16 metodik vəsait hazırlanaraq bələdiyyələrə paylanıldığı bildirilib.

Tədbirdə müxtəlif məsələlər üzrə çıxışlar edilərək görülmüş işlərlə yanaşı, mövcud çatışmazlıqlar, yol verilmiş nöqsanlar geniş müzakirə olunub, bələdiyyələrlə iş sahəsində qarşıda duran vəzifələr müəyyənləşdirilib.

***"Xalq qəzeti"***

# Üçüncü "Yüksəliş" müsabiqəsi qalibləri mükafatlandırıldılar

**ADA Universitetində üçüncü "Yüksəliş" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi baş tutub.**

Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və başqaları qalibləri təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Müsabiqənin 22 qalibi diplomla təltif ediliblər.

Təbiət və biz

# Dünən Lənkəranda zəlzələ oldu

## *Bəs biz necə – təbiətin şıltaqlığına hazırıqmı?*

**Dünən Azərbaycanda daha bir zəlzələ qeydə alınıb. Budəfəki yeraltı təkanlar Lənkəran rayonunda baş verib. Mediada yayılmış bəzi məlumatlarda zəlzələnin Xəzər dənizində olması ilə bağlı xəbərlər də yer almışdı.**



İyulun 4-də Xəzər dənizində qeydə alınmış zəlzələ insanlarda böyük təşviş yaratmışdı. Son zəlzələlərlə bağlı AMEA nəzdində fəaliyyət göstərən Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişliyə müraciət edərək "Xalq qəzeti" üçün müsahibə aldıq.

**– Qurban müəllim, Lənkəranda hiss olunan yeraltı təkanlarla bağlı nə deyə bilərsiniz?**

– Yerli vaxtla saat 11:03-də Lənkəran stansiyasından 23 kilometr şimal-qərbdə zəlzələ episentrdə 5, ətraf rayonlarda isə 5–3 bala qədər titrəyiş hiss olunmuşdur. Tələfat və dağıntı olmamışdır.

Bizim bölgə seysmik zonadır və hansısa hiss olunan zəlzələlər olanda təşvişə düşməməliyik. İnsanlar soyuqqanlılıqla qəbul etsinlər ki, təbii hadisənin qarşısını almaq olmaz. Həmin anda özünü necə aparmalısan? Bu, bütün dünyada ön plandadır. Təşvişə düşmək qətiyyən olmaz. Xəstə, yaşlı



insanları da düşünmək lazımdır. Narahat olan insanlardan kimi liftə minir, kimi küçəyə qaçır, kimi də özünü pəncərədən atır. Bu, saniyələr ərzində baş verən hadisədir. Həyət evində, yaxud aşağı mərtəbədə bayıra çıxmaq olar. Amma elə yerdə dayanmaq lazımdır ki, binadan qopan əşyadan xəsarət almayasan. Evin içərisində elə yerdə dayanasan ki, nə isə üstünə düşməsin. Eyvana çıxmaq, liftə girmək, pilləkənlə qaçmaq təhlükəlidir.

**– İyulun 4-də Xəzər dənizində qeydə alınmış zəlzələ insanlarda belə bir narahatlıq yaratmışdı...**

– Həmin gün yerli vaxtla saat 00:01-də Xəzər dənizində zəlzələ qeydə alınmışdı. Dərhal insanlar küçələrə axışırdılar. Burada əsas məsələ maarifləndirmədir. Ən əsası şayiələrə inanmamaqdır. Dövlət orqanları, bu sahədə çalışanlar var, rəsmi məlumata qulaq asmaq lazımdır. Nə bilim, kimsə mesaj göndərir ki, zəlzələnin saat 4-də maqnitudası 6,1 olacaq, yaxud 2 saat sonra təkrar olacaq. Fikirləşmək lazımdır ki, zəlzələ ocağının dərinliyi 65 kilometrdir. Bu halda necə mesaj vermək olar. Bu, mümkünsüzdür.

Həmin vaxt vəziyyəti operativ araşdırdıq. O zəlzələnin bütün parametrlərini müəyyən etdik. Orada ayrılan və qalmış enerjinin gücü nə qədərdir və maksimal gücdə neçə təkan ola bilər – bunu hesabladıq. Böyük arxayınlıqla televiziya kanalından müraciət etdik ki, şayiələrə inanmayın. Bunlar elmi cəhətdən əsaslandırılmış məsələlərdir. Açıqlama verdim ki, qorxulu heç nə yoxdur. Düzdür, maqnitudası 5,5 orta güclü zəlzələ hesab olunur. Çox dərində olduğu üçün böyük bir ərazini əhatə edib silkələmişdi. Əgər 5-10 kilometr dərinlikdə olsaydı, təxminən, 8-9 bala çatardı.

**– Zəlzələ təlaşı daha çox yeni tikilmiş hündürmərtəbəli binaların sakinlərində hiss olundu. Türkiyənin Kahramanmaraş vilayəti və ətraf ərazilərdə baş vermiş dağıdıcı zəlzələdən sonra insanların hündürmərtəbəli, yeni tikililərə inamı azalıb.**

– Türkiyədə baş verən zəlzələ böyük faciəyə səbəb oldu. Seysmologiyada zəlzələnin davamlığının 1 dəqiqə olması nadir haldır. Texnologiyaların inkişaf etdiyi müasir dövrdə, binaların tikintisi üçün yerlərin seçilməsi üçün geniş imkanların olduğu bir zamanda 50 mindən çox insanın həlak olması bir çox suallar meydana çıxardı. Bu böyük faciənin miqyasını azaltmaq olardımı?

Zəlzələdən sonra biz bir neçə əyalətdə olduq, tədqiqat apardıq. 6 seçmə şirkət yan-yana, eyni layihə ilə 6 bina tikib. Onun 4-ü dağılıb, ikisi silkələnib, sadəcə, çatlar əmələ gəlib. İki yanaşı binanın birində sütunlar dağılıb, armaturlar sıxılıb, bina yatıb, digəri yüngül zədələnib. Onu da qeyd edim ki, həmin binalar bütün tələblərə əməl edilməklə inşa edilib. Ən dəhşətli "Bazarcıq" deyilən ərazidə qeydə alınmışdı. Orda yerdaxili qruntun müxtəlifliyi göstərir ki, şəhərsalmada binaları tikərkən ümumi seysmik xəritəyə əsaslanıblar. Qruntu və yükü nəzərə alıblar, ayrı-ayrılıqda hər bina üçün tədqiqat aparılmayıb. Apardığımız tədqiqatların nəticəsi olaraq göstərdik ki, eyni layihəli binanın biri yüngül zədələnib, yəni çatlar əmələ gəlib, digəri tamam çöküb. Deməli, laylar arasında müxtəliflik var və bu, nəzərə alınmayıb.

**– Araşdırmalar binaların keyfiyyətsiz tikildiyini də göstərdi...**

– Əlbəttə, orada keyfiyyətsiz binalar da çox olub. Amma dediyim bu məsələ böyük rol oynayır. Geoloji quruluş cəhətdən mürəkkəb ərazilərdə tikinti aparılan zaman layihələndirmədən öncə hər binanın altı diqqətlə öyrənilməlidir. Memar və layihəçilər təlimata uyğun binalar inşa etməlidirlər.

Burada layların qırılması, yatımı, nəmliyi, sürüşmə modulu və s. var. Kahramanmaraşda yaponlar işləyir. Onlar da deyirlər ki, binaaltı tam öyrənilməlidir. Məsələn, diqqət etsək, 2 bina arasında məsafə təxminən 8 metrdir. Binaaltı tədqiqat aparılsa "П" şəkilli binanın 2 qanadının 8, 1 qanadının 9 ballıq olduğu meydana çıxar. Seysmik xəritəyə görə, əgər o, 8 bal kimi layihələndirilibsə, o biri qanadlara nisbətən burada dağıntı çox olacaq. Belə götürəndə o layihəçinin günahı yoxdur. Axı xəritənin miqyası var. 1 metrdən 1 kilometrə kimi götürülür.

**– Yeni seysmik xəritə bu sahədə hansı irəliləyişlərə səbəb olacaq?**

– Seysmik xəritə hansı zonanın neçə ballıq olması ilə bağlı ümumi təsəvvür yaradır, ehtimal olunan təhlükəli zonaları müəyyən edir. Sonuncu seysmik rayonlaşdırma xəritəsi 1979-cu ildə hazırlanıb. Spitakda baş verən güclü zəlzələdən sonra 1991-ci ildə ümumi xəritədə avtomatik olaraq seysmik göstəricilər rayonlar üzrə 1 bal artırıldı. İndi həmin xəritəni təkmilləşdirmək üçün tədqiqat aparmaq lazımdır. Amma geoloji quruluş cəhətdən mürəkkəb ərazilərdə hər binanın altında tədqiqat aparılmalıdır. Zəlzələ baş verəndə orada süxurların yatımı, növü, nəmliyi, məsaməliyi, sıxlığı öz işini görür, qrunt suyunun səviyyəsindən asılı olaraq dalğa öz enerjisini buraxa-buraxa gedir. Bərk süxurlarda dalğa yüksək sürətlə hərəkət edir, o qədər də qorxulu deyil. Boş süxurlarda isə dalğanın buraxdığı enerji yer üzündə hiss olunur.

**– Yəqin buna görədir ki, bəzi hündürmərtəbəli binaların istismarına icazə verilmir...**

– Fövqəladə Hallar Nazirliyi (FHN) yaranandan sonra 3 minə yaxın binanın tədqiqatı aparılıb, sonra layihəçilərə verilib. Hər bir binanın altı ayrıca öyrənilib. Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tikintini qəbul edir. Yəni, bütün normativlərə cavab verməyən tikinti qəbul edilmir. Bu, çox ciddi məsələdir. Xeyli bina var ki, onlar qəbul olunmayıb, lakin onların bəzilərində hətta insanlar yaşayır. Hazırda bu məsələlərlə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi məşğul olur.

FHN məsələ qaldırıb ki, yerli mütəxəssislərlə birgə yaponları da dəvət edək, müvafiq işlər aparılsın. Bu sahədə birgə əməkdaşlıq üçün həmişə hazırıq. Yeni texnologiya və proqramların köməyi ilə rayonlar üzrə yeni tikilmiş binalar, onların seysmik dayanıqlığı müəyyən olunandan sonra tədqiqat aparılacaq. Görülən işlər həm də güclü zəlzələ zamanı ərazinin hansı sahəsinə ilkin xilasedicilərin göndərilməsi baxımından faydalı olacaq.

Hazırda bir çox bina var ki, öz vaxtını bitirib. "Xruşşovka", "stalinka"ların sökülməsi üçün sərəncamlar verilib. İlk növbədə, qəzalı binalar söküləcək. Gələcəkdə isə o binaların hamısı yenisi ilə əvəz olunacaq.

**– Ötən il ölkəmizdə yeni seysmik stansiyalar quraşdırılıb. Hazırda bu sahədə hansı işlər görülür?**

– Bəli, 2022-ci ildə "Qafqaz və Mərkəzi Asiyada seysmik şəbəkənin genişləndirilməsi" layihəsi çərçivəsində "Nanometrics" şirkətinin istehsalı olan 22 seysmik stansiya quraşdırılıb. Onlardan 12-si vulkanlar ətrafındadır. Yeni seysmik stansiyaların açılmasını planlaşdırırıq. Qardaş Türkiyə 1 komplekt seysmik avadanlıq verib. Şuşada Daşaltıda yeni seysmik stansiya açılacaq. Maliyyəni türklər öz üzərlərinə götürüblər. Yaxınlarda qazma işlərinə başlamalıdırlar. Qarabağda, ümumilikdə, 10 kompleks stansiyanın quraşdırılması planlaşdırılır.

Amerikanın Missuri Universitetinin professoru Erik Sandvol və universitetin əməkdaşı Dastin Rey Azərbaycanda səfərdədirlər. Səfərin məqsədi "Qafqaz kəsilişi" layihəsi çərçivəsində birgə həyata keçiriləcək tədqiqat işləri ilə bağlıdır.

Amerikalı seysmoloqlar AMEA nəzdində RSXM-nin Monitorinq Mərkəzində "Zəlzələlərin tədqiqatı bürosu" və "Zəlzələ ocaqlarının dinamikası" şöbəsinin əməkdaşları ilə aparılan tədqiqat işlərinə dair müzakirələr aparıblar.

**Leyla QURBANOVA, "Xalq qəzeti"**

Nadir sərgi

**Azərbaycan Milli İncəsənət Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Xalqın hikməti, elin sənəti" adlı sərgi açılıb. Sərdarlılar ailəsinin yaratdığı xalq tətbiqi sənət nümunələrinin təqdim edildiyi mərasimdə ölkənin tanınmış elm və mədəniyyət adamları, deputatlar, sənətsevərlər və media təmsilçiləri iştirak ediblər.**

# Sərdarlıların el sənəti nümunələri

## *Bu əl işləri Milli İncəsənət Muzeyində sərgilənir*



Milli İncəsənət Muzeyinin direktoru Çingiz Fərzəliyev sərginin açılışında bildirib ki qədim el sənətlərini yaşadan bu nadir ailənin əl işləri həm zəriflik, həm müxtəliflik baxımından göz oxşayır. Sandıq və mücrülər isə diqqəti xüsusi cəlb edir. Bu sərginin ən böyük



əhəmiyyəti o olacaq ki, nümayiş etdirilən sənət əsərləri xalqımızda el sənətlərinə yeni maraq yaradacaq.



"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Sərdarlılar ailəsini yaxından tanıdığını, evlərinin hər guşəsində bir sənət nümunəsinin sıralandığını söyləyib. O bildirib ki, həyatları jurnalistika ilə sıx bağlı olmuş İskəndər, Lalə, Toğrul (ata, ana, oğul) üçlüyünün ərsəyə gətirdiyi sənət nümunələri hər kəsi daxilən zənginləşdirir, bu işlərin insan



əli ilə hazırlandığına inana bilmirsən.

Milli Məclisin deputatları Musa Quliyev və Hikmət Babaoğlu qeyd ediblər ki, Qərbi Azərbaycana Qayıdış ərəfəsində belə unudulmuş sənət nümunələrinin hazırlanması və sərgilənməsi çox dəyərli və əhəmiyyətlidir. Bineyi-qədimdən o ellərdə də gəlin köçənlərə mücrü və sandıq verilirdi. Evlərdə ən dəyərli əşyalar həmin saxlanclarda qorunurdu. Belə əl işləri məişət mədəniyyətimizin qiymətli nümunələridir. Bu sənət əsərləri milli kimliyimizin də göstəricisidir.

Bildirilib ki, belə sərginin keçirilməsi ilkinliyimizə qayıdışdır, yaddan çıxmış sənət əsərlərinə dəyər vermək və unudulmağa qoymamaq üçün fürsətdir. Sandıq Vətən sevgisinin də göstəricisidir. Sərdarlılar kimi ailələrin bu ilkinliyə bağlı olması mənəvi zənginlik və yurdsevərlik yaradır. Sərginin keçirilməsi həm də ona görə önəmlidir ki, ulu öndərin 100 illiyinə həsr olunub.

Sənətşünas Ziyadxan Əliyev və rəssam Xanlar Əhmədov da Sərdarlıların bu nəcib işinə dəyər veriblər, onların əl işlərinin çox yüksək qiyməti olduğunu söyləyiblər. Media eksperti Azər Həsrət isə İskəndər və Lalə Sərdarlıların bir zamanlar jurnalist kimi fəaliyyət göstərdiklərindən söz açaraq deyib ki, onların yaradıcılığın bu sahəsinə keçmələri el sənətlərinin yaşadılmasına önəmli xidmət oldu. Maraqlı odur ki, onlar qədim xalq sənətini yeni texnologiyalarla birləşdirməyi bacarıblar.

İskəndər Sərdarlı tədbirə toplaşanlara təşəkkür edərək bildirib ki, tətbiqi sənətlə məşğul olmağa başlayanda müvafiq təhsil almamışdıq, rəssamlıqla, təsviri sənətlə bağlı peşəkar bilgilərimiz yox idi. Elə bil, mənəvi dünyamızda bir işıq yanıb, bizi bu gözəllik dünyasını görməyə və göstərməyə çağırdı.

Sərgi iştirakçıları Sərdarlıların 100-dən çox nağılvari əsərinə maraqla tamaşa ediblər.

**Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"**

Beynəlxalq həyat

# Rusiya–Ukrayna müharibəsi: cəbhə boyu mövqe döyüşləri gedir

**Dünyanın ən böyük ərazisinə malik olan Rusiya Federasiyası əhalisi özündən təxminən üç dəfə az olan Ukraynaya qarşı 2022-ci il fevralın 24-dən müharibə aparır və lakin ötən müddət ərzində tərəflərin heç biri bu qanlı savaşda ciddi uğura nail ola bilməyib. Ekspertlər bunu daha çox Ukrayna xalqının öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun müdafiə etmək əzmində olması ilə izah edirlər.**



Rusiya Silahlı Qüvvələri müharibənin ilk günlərində Ukraynanın bir çox şəhər və kəndlərini ələ keçirməyə müvəffəq olsalar da, sonrakı həftələr və aylar ərzində onların bir hissəsini geri qaytarmağa məcbur olublar. Bununla bərabər, son böyük gözləntilərə rəğmən, Qərb müttəfiqlərindən çox sayda silah-sursat alan Ukrayna Ordusu rəqibə qarşı genişmiqyaslı uğurlu əks-hücum əməliyyatı həyata keçirə bilmir. Bu dəfə artıq Rusiya hərbçiləri ciddi müdafiə istehkamları yaradaraq qarşı tərəfin çoxsaylı cəhdlərinin qarşısını ala bilirlər.

Bir çox analitiklər Rusiya–Ukrayna cəbhəsindəki hazırkı vəziyyəti mövqe döyüşləri kimi səciyyələndirirlər. Cəbhədə hazırda şahmatçıların dili ilə desək, faktiki olaraq pat vəziyyəti yaranıb. Bunun nə qədər davam edəcəyini ehtimal etmək çətindir. Politoloqlar düşünürlər ki, Ukrayna qış ayları düşənə qədər döyüşlərdə ciddi dönüş yaradıb parlaq qələbə qazana bilməzsə, Qərbin Kiyevə hərbi və maliyyə dəstəyi kəskin azala bilər. Əslində, Moskva məhz Ukraynanın hərbi ehtiyatlarını tükəndirmək niyyətilə müharibəni hər vəchlə uzatmağa çalışır.

Qeyd etmək lazımdır ki, tərəflər arasında mövqe döyüşlərinin getməsi heç də o demək deyil ki, digər ərazilərdə müharibənin dağıdıcı təsiri hiss olunmur. Əksinə, son günlər ərzində rəqiblər pilotsuz uçuş aparatları – PUA-lar vasitəsilə bir-birlərinin hərbi və mülki obyektlərini intensiv olaraq raket zərbələrinə məruz qoyurlar. Bu zaman hər iki tərəfdə infrastruktur dağıdılır və dinc əhali arasında ölən və yaralananların sayı durmadan artır.

Rusiya Federasiyasının rəsmi dövlət agentliyi olan TASS-ın məlumatına görə, dünən səhər saat 10 radələrində Ukraynanın Nikolayev və Odessa şəhərlərinə raket zərbələri endirilib. Xarkov vilayətində hava zərbələri nəticəsində ağır partlayışlar olub. Başqa bir xəbərdə isə deyilir ki, Ukrayna Silahlı Qüvvələri son sutka ərzində Rusiyanın nəzarətində olan yaşayış məntəqələrini 36 dəfə yaylım atəşinə məruz qoyublar.

Dünən Rusiyanın Belqorod və Kursk yaşayış məntəqələrinə dron zərbələri endirildiyi barədə məlumatlar yayılıb. Ukrayna Silahlı Qüvvələri Donetsk vilayətinin Baxmut (şəhərinin şimal və cənubundan), Melitopol və Beryansk istiqamətlərində əks-hücumu davam etdiriblər.

Qərb dövlətləri tərəfindən Ukraynaya hərbi yardımlar davam etdirilir. Bu günlərdə ABŞ Müdafiə Nazirliyi Ukraynaya 400 milyon dollarlıq yeni hərbi yardım paketi təqdim edəcəyini açıqlayıb. Hərbi yardım paketinə hava hücumundan müdafiə, artilleriya və döyüş sursatları, zirehli maşınlar, tank əleyhinə silahlar və digər avadanlıqlar daxildir.

Lakin rəsmi Vaşinqton və avropalı müttəfiqləri Qərbin Kiyevə təhvil verəcəyi "F-16" döyüş təyyarələrini idarə etmək üçün ukraynalı pilotlara təlim keçmək planları ilə bağlı razılığa gələ bilməyiblər.

### Ekspert rəyi



**Aydın İBRAHİMOV, BDU-nun xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor**

– Göründüyü kimi, Rusiya–Ukrayna müharibəsi üzunmüddətli xarakter alır. Tərəflər kompromisə getmək istəmir, yalnız öz şərtləri daxilində sülhdən bəhs edirlər.

Ukrayna özü üçün qırmızı xətt kimi, Krım da daxil olmaqla, hazırda işğal altında olan bütün ərazilərinin geri qaytarılmasını tələb edir. Kiyevin Qərbdəki müttəfiqləri bu məsələdə onu dəstəkləyir. Belə çıxır ki, Ukrayna sülh danışıqlarına yalnız Rusiyanın məğlubiyyətindən sonra başlaya bilər.

Rusiya isə elan edir ki, sülh Ukraynanın "denasifikasiya"sından sonra mümkündür. Bu nə deməkdir, rəsmi Moskva tərəfindən bu, tam açıqlanmır.

ABŞ Dövlət katibi Entoni Blinken bu münaqişədə Rusiyanı artıq məğlub hesab edir. Rusiya Prezidenti Vladimir Putinin fikrincə isə, Ukraynanın itkiləri daha çoxdur və Qərbin dəstəyinin heç bir faydası olmayıb və olmayacaq. Onun sözlərinə görə, Qərbin müdaxiləsi münaqişənin daha da uzanmasına gətirib çıxaracaq.

Reallıq budur ki, Rusiya cəbhənin bütün təmas xətti boyu dərin müdafiə istehkamları qurub və bu minalanmış əraziləri yarıb keçmək olduqca çətin və təhlükəlidir.

Ukrayna əvvəllər tezliklə uğurlu əks-hücum əməliyyatı keçirəcəyini və ərazilərini azad edəcəyini vəd edirdi. Lakin bu, baş vermədi. İndi Ukraynanın bütün ümidləri ABŞ istehsalı olan "F-16"-laradır.

Son vaxtlar Ukrayna Rusiyanın mərkəzi rayonlarına, hətta Moskvaya raket zərbələri endirir. Buna cavab olaraq, Kreml Odessa, Xarkov və Zaporojye şəhərlərini havadan atəşə tutur.

Kritik məsələlərdən biri taxıl sazişidir. Rusiya bu sazişdən çıxıb. Qərb bundan çox hiddətlənib. Rusiya Ukraynanın Qara dənizdəki limanlarını mühasirəyə alıb. Qərb indi Ukrayna taxılını quru yolla daşımaq barədə düşünür.

Hələlik müharibə uzanır, hansısa gizli oyun davam edir və planetin geosiyasi mənzərəsi dəyişir.

Rusiya dünyanın müxtəlif yerlərində, eləcə də Afrikada özünə yeni müttəfiqlər axtarır. Qərb buna mane olmağa çalışır. Münaqişə qlobal xarakter almağa başlayıb. Gələcək barədə proqnoz vermək çətindir, bununla bərabər, ümid etmək istərdik ki, sağlam düşüncə qalib gələcək və dünya gücləri, nəhayət, ümumi bir məxrəcə gələcəklər.

Sonda yekun nəticə çıxarmalı olsaq deyə bilərik ki, geosiyasi planda dünya yeni fazaya daxil olub. Gözümüzün önündə iki hissədən ibarət blok yaranır. Bunlar ənənəvi və yeni bloklardır. Yeni bloka keçmiş sosialist respublikaları və Baltikyanı ölkələr daxil edilir. Bu ölkələr Rusiyanı ideoloji və mədəni anlamda qəbul etmirlər.

Digər tərəfdən, Çin və Rusiya Federasiyası başda olmaqla, Şərq bloku formalaşır. Və bu bloka dünyanın bir çox inkişaf etməkdə olan dövlətləri də qoşulur.

Göründüyü ki, yeni dünya nizamı çox mürəkkəb və proqnozlaşdırılması çətin olan bir şəraitdə formalaşır.

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

# Avropa anomal istilərin cəngində...

**Avropada bu yay, xüsusən də İspaniya, Yunanıstan və İtaliya kimi ölkələrdə çox isti keçir. İyulun ortalarında ən yüksək temperatur İtaliyanın paytaxtı Romada qeydə alınıb – 42 dərəcə Selsi. Bu, İtaliya üçün fəsadlar törədir, meşə yanğınlarına səbəb olur. Artıq Siciliya adasında onlarla meşə yanğını qeydə alınıb.**

Yanğınların söndürülməsi üçün mülki müdafiə qüvvələri səfərbər olsa da, o yeni sahələrə yayılır, insan ölümünə səbəb olur. Bildirilir ki, meşə yanğınları 4 nəfərin ölümünə səbəb olub, təxminən, 2 min insan təxliyə edilib. Yanğınlara müdaxilə edən 1 meşə işçisi və 2 yanğınsöndürən isə yaralanıb.

İqlim dəyişikliyi İtaliyada digər fəlakətlərə də səbəb olub. Lombardiya regionunda güclü külək ağacları avtomobillərin üzərinə və yollara aşırıb, binaların dam örtüklərini uçurub. Küləyin sürəti saatda 100 kilometrə çatıb. İctimai nəqliyyatın və regionlararası qatarların hərəkətində fasilələr yaranıb. Milanda bütün parklar bağlanıb. Breşiada azyaşlı qız aşan ağacların altında qalaraq ölüb.

Müxtəlif bölgələrdə güclü yağışlar nəticəsində torpaq sürüşmələri baş verib. Bəzi şəhərlərdə leysan yağışı ilə birlikdə güclü dolu yağıb. Əlverişsiz hava şəraiti səbəbindən bir çox şəhərdə infrastruktura ciddi ziyan dəyib.

Yunanıstanda da vəziyyət çox ağırdır. Bu ölkənin yanğınsöndürənləri digər ölkələrdən olan həmkarları ilə birlikdə həddindən artıq istilərin səbəb olduğu meşə yanğınları ilə mübarizəni davam etdirirlər. Meteoroloqlar cümə axşamından etibarən ölkəni daha bir anomal isti günlər silsiləsinin gözlədiyini proqnozlaşdırırlar. Yunanıstanın Rodos adasında meşə yanğınları ardıcıl 10-cu gündür ki, davam edir. Artıq minlərlə insan, o cümlədən turistlər adanı tərk edirlər. Yunanıstan hakimiyyəti Rodosdan əhalinin evakuasiyasını ölkə tarixində ən böyük əməliyyat adlandırıb. Korfu və Evbeidən də insanlar təxliyə edilir.

Hazırda Yunanıstanda anomal istilərin səbəb olduğu onlarla yanğın söndürülür. Bəzi ərazilərdə yanğının söndürülməsinə yerli sakinlər cəlb olunur.

Fransada da havalar isti keçir. Ölkənin cənub-şərqindəki Dənizkənarı Alplar departamentində, Nitsa şəhərindən 10 kilometr aralıda yerləşən Kann-sür-Mer kommunasında təbii yanğın baş verib. Kann-sür-Merdən keçən A8 magistralında nəqliyyatın hərəkəti pozulub. Həmçinin Antib-Nitsa marşrutu üzrə hər iki istiqamətdə qatarların hərəkəti də müvəqqəti olaraq dayandırılıb. Yanğının söndürülməsində 80-ə yaxın yanğınsöndürən iştirak edir, səlahiyyətlilər helikopter də cəlb ediblər.




Türkiyədə də oxşar vəziyyət yaranıb. Bu gün havanın temperaturunun Manisa, Aydında 45 dərəcəyə, İstanbulda isə 41 dərəcəyə qalxacağı gözlənilir. Mütəxəssislər çölə çıxacaq vətəndaşlara sağlamlıq baxımından böyük riskləri olduğu barədə xəbərdarlıq ediblər.

Antalyanın Kəmər turizm bölgəsində isə ötən gecədən başlayan böyük meşə yanğını tüğyan edir. Artıq 60 hektara yaxın meşə sahəsi tamamilə yanıb. Yanğının söndürülməsində 11 təyyarə, 22 helikopter işləyir, 500-dən çox yanğınsöndürən iştirak edir. Bununla belə, səlahiyyətlilər turistlərin təhlükədə olmadığını bildirirlər. Türkiyənin daxili işlər nazirinin müavini Münin Karaoğlu jurnalistlərə açıqlamasında bildirib: "Həmişə olduğu kimi bu mövsümdə də yüksək rütubət və güclü istilik var. Ölkənin müxtəlif bölgələrində meşə yanğınları mütəmadi olaraq baş verir. Ərazi çox dağlıqdır və xilasedicilərin işləməsi çətindir. Ümid edirik ki, tezliklə nəzarət altına alınacaq".

Mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyun sözlərinə görə, yanğın yaşayış məntəqələrini təhlükə altına salmır.

Beləliklə, son illərdə Avropada artan istilik dalğaları müşahidə olunur. "World Weather Attribution" hesabatına görə, bu, insanın fəaliyyətinin nəticəsidir. London Kral Kollecinin iqlimşünaslıq üzrə professoru Paulo Çeppi deyib: "Biz əvvəllər də istilik dalğalarını müşayiət etmişik. Bunlar təsadüfi idi. İndi bu istilik dalğaları getdikcə daha çox baş verir və daha da güclənir. Biz hesablamışıq ki, keçmişdə istilik dalğaları sənaye inqilabından əvvəl hər 50 ildə bir dəfə baş verirdi. İndi istilik dalğaları 5 dəfə daha tez baş verir. Və əvvəlkindən bir dərəcə Selsi daha isti olduğu ortaya çıxır. İsti dalğalar həmişə olub, amma indi daha da güclənir və tez-tez olur. Bu da insan fəaliyyətinin nəticəsidir".

*Pünhan ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

*Yaxın–uzaq ellərimiz*

**Maarifçi və demokratik ənənələrə söykənən milli mətbuatımız nəinki Azərbaycanda, eləcə də Yaxın və Orta Şərqdə, Rusiyada, Gürcüstanda, Dağıstanda, Özbəkistanda və başqa yerlərdə ictimai şüurun, mütərəqqi düşüncənin formalaşdırılmasında təsirli rol oynamış, bu istiqamətdə ideya-məfkurəvi xidmətlər göstərmişdir.**

# "Dərbənd" qəzeti imdad diləyir

Milli mətbuatın bünövrə daşı olan "Əkinçi" qəzetinin qazandığı ən böyük uğurlar, ilk növbədə, onun dilinin xalq danışığına yaxın olması, elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına təkan verməsi ilə bağlıdır. Bu qəzet təkcə Azərbaycanda deyil, Dağıstanda, Gürcüstanda, Özbəkistanda, Krımda, Həştərxanda və başqa yerlərdə də yayılmış, özündən sonra bir sıra mətbu nəşrlərə cığır açmışdır.

Azərbaycanda milli mətbuatın uğurlu nümunələri qonşu Dağıstanda, o cümlədən qədim Dərbənddə də ilk mətbu nəşrlərinin işıq üzü görməsinə təkan vermişdir. Belə ki, 1920-ci ildə Dağıstanda türk dilində "Dağıstan şurası" qəzeti nəşrə başlamışdır. Bu qəzetin çapında Azərbaycanda və bütün İslam dünyasında ilk milli sosial-demokrat nəşri olan "Hümmət" qəzetinin birbaşa rolu olmuşdur.

İlk dövrlərdə qəzet Dərbənd, Samur, Tabasaran və ətraf bölgələrdə yaşayan azərbaycanlıların həyatını və problemlərini işıqlandırmış, 1922-ci ildən başlayaraq "Dağıstan fuqaraları" ("Dağıstan yoxsulları") adı ilə nəşr olunmağa başlamışdır. 1931-ci ildən etibarən Cənubi Dağıstanın Dərbənd, Tabasaran və ləzgi bölgələrini əhatə edən qəzet "Kolxoz yolu", 1932-ci ildən 1960-cı ilə qədər "Lenin bayrağı" adı altında nəşr olunmuşdur.

1950-ci illərin ikinci yarısında sovet diktatoru N.Xruşşov tərəfindən aparılan anti-Azərbaycan mövqeli "islahatlar" nəticəsində Dərbənddə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin bağlanması və tədrisin rus dilində aparılmasına başlanması yerli dövri mətbuata da mənfi təsir etdi. Nəticədə, milli qəzetimiz rusdilli şəhər qəzeti ilə birləşdirildi. Səlahiyyətli orqanların bu qərarı Dağıstan azərbaycanlıları arasında narazılığa səbəb oldu. Əhalinin narazılığı nəzərə alınaraq, 1963-cü ildə Dərbənddə Azərbaycan dilində qəzet fərqli bir adla – "Kənd mayakları", daha sonra isə "Leninçi" adı altında nəşrə başladı. Bu dövrdə qəzetin adı 3 dəfə dəyişdirildi və 1990-cı ildə Dağıstan Ali Sovetinin qərarı ilə Azərbaycan dilində "Dərbənd" respublika qəzeti olaraq çap olunmağa başladı. Qəzetin nəşri bugünə qədər davam edir.

Dərbənd xalqımız mövcud olandan Azərbaycanın şimal qapısı sayılmışdır. Bolşeviklər bu vilayəti Dağıstana qatmışlar. Sovet dövründə Azərbaycan və Dağıstan xalqlarının min illərə söykənən qardaşlıq əlaqələri görkəmli dövlət xadimləri Əziz Əliyev və Heydər Əliyevin fəaliyyətləri ilə daha da gücləndirilmiş, müstəqillik illərində Səid Qurbanov kimi soydaşlarımızın fədakarlığı ilə davam etdirilmişdir. Ənənəvi dostluq əlaqələri, görüşləri qəzetin səhifələrində mütəmadi olaraq işıqlandırılmış, redaksiyada jurnalist nəsilləri dəyişsə də, qəzetin məramı, amalı qorunub saxlanılmışdır.

"Dərbənd" qəzeti mükəmməl çap bazası, peşəkar kadrlar olmadan meydana gəlib, gərgin və ziddiyyətli bir dövr olan 20-ci əsrin sonunda müxtəlif keşməkeşli dövrlər yaşayıb. Amma buna baxmayaraq, yeganə anadili mətbu nəşr olaraq qardaş Dağıstanda yaşayan soydaşlarımızın gündəlik həyatını, bu diyarın inkişaf mərhələlərini yaradıcı zehniyyətlə təbliğ edib, milli, sosial və iqtisadi problemləri təhlilini qabardıb və onların həllində köməkçi olub. Fədakar, yaradıcı qələm sahibləri aşağı təminat və cüzi maaş müqabilində vətən və millət adına hər məhrumiyyətə dözərək doğma "Dərbənd" qəzetini yaşadıblar. "Dərbənd" qəzeti də "Dəmirqapı Dərbənd"in min illər yaşı olan milli-mənəvi varlığını, tarixi nailiyyətlərini, ədəbi-bədii məclislərini, Vətən sevdalı ürəklərin yaradıcılıq nümunələrini, mütəfəkkir alim və şairlərin, çal-çağırlı ozanların zəngin irsini yaşadıb.

Dağ duruşlu, dağ vüqarlı Narınqala əzəmətini, ərənlərin adlarına uyğun Qırxlar qapısını, Daşqapını, Carçıqapını, Bayat qapını, Orta qapını, VIII əsrdə inşa edilən Cümə məscidini, Calğan dağının dəmir iradəsinə söykənən qala duruşunu, ara-sıra itən, oğurlanan, yaralanan və bizlərə boylanıb qıvrıla-qıvrıla, sıyrıla-sıyrıla dil-dil ötən daşları səhifə-səhifə, sətir-sətir ovudub "Dərbənd" qəzeti...

Bir əsrə yaxın müxtəlif adlar altında fəaliyyət göstərən "Dərbənd" qəzeti haqqında cəsarətlə deyə bilərik ki, Vətəndən kənarda yaşayan soydaşlarımızın təkcə mədəni həyatını deyil, eyni zamanda, təhsil, səhiyyə, idman və gündəlik həyat sahəsindəki uğurları təbliğ edərək oxuculara çatdırıb. Xalqımızın bağrından qopan ünlü ictimai xadimlərin və ziyalıların sayı da "Dərbənd"in sayəsində əhəmiyyətli dərəcədə artıb. Eyni zamanda, qəzet Dağıstanın cənubunda ana dilimizin saflığının qorunub saxlanmasında müstəsna rol oynayıb.

Qala şəhərin adını daşıyan qəzetin ardıcıl şəkildə nəşr olunub bugünümüzə qədər gəlib çıxmasında baş redaktorlar – Qilas Qilasovun, Əlixan Əlixanovun, Hacıməhmud Əlifxanovun, Nəriman Ağasıyevin, Bulqədər Alxasovun, Təhmiraz İmamovun, eləcə də dərbəndli şair və yazıçılarımızdan Şıxıbrahim Mahafovun, Əmirbəy Çepivinin, Düriyyə Rəhimovanın, Aşıq Sakitin və dünyasını dəyişmiş başqa ziyalıların, eləcə də hazırda Dərbəndin parlaq ədəbi simaları olan Fəxrəddin Oruc Qəribsəsin, Elman Abbasın, Zeynəb Dərbəndlinin, Tahir Salehin, Safiyat Calğanskayanın, Qurbanın və əlbəttə, qəzetin əməkdaşlarının və redaksiya heyətinin böyük xidmətləri olub və bu iş indi də davam etdirilir.

Ötən illər ərzində qardaş Dağıstanın bir çox ağsaqqal sakini qəzetin daimi oxucu sıralarına qoşulmağla yanaşı, onun səhifələrinin materiallarının daha zəngin və mənalı olması, milli vətənpərvərlik tərbiyəsinə, xalqların sarsılmaz dostluğuna böyük önəm verilməsi üçün fədakar mövqe sərgiləyiblər.

Təəssüf ki, hazırda 2 min tirajla nəşr olunan "Dərbənd" qəzeti (baş redaktor Tərlan Ələkbərovdur) özünün heç də uğurlu günlərini yaşamır və Samurun o tayındakı soydaşlarımızın həyatını lazımınca işıqlandıra bilmir. Çətinliklər azmış kimi, uzun illər hər cür təzyiq və qadağalara sinə gərən, qanlı-qadalı repressiya mərhələlərini adlayıb bugünümüzə başıuca, alnıaçıq gəlib çıxan və ana dilimizin, mədəniyyətimizin təbliğində böyük xidmətləri olan qəzetin indiki rəhbərliyi yarıtmaz fəaliyyəti ilə dilimizin qorunmasına, milli varlığımızın yaşadılmasına laqeyd yanaşır. Dövlət büdcəsindən maliyyələşən qəzetin səhifələrində yer alan yazıların ideoloji və siyasi xətti bəllidir, amma dərc olunan materiallarda ana dilimizin üslubi, qrammatik və digər məziyyətlərinin qorunmasına, nədənsə, biganə münasibət bəslənməsi Dərbənddə ana dilini, az qala, məhvə sürükləyir. Üstəlik, nə qədər təəccüblü olsa da, "Dərbənd" kiril qrafikası ilə çap edilir ki, bu da onun naşirlərinə heç də üzağlığı gətirmir.



On illərlə ana dilimizə, Dağıstanda yaşayan soydaşlarımıza şərəfli və unudulmaz xidmətlər göstərən bir qəzetin başında peşəkar, dilimizin qrammatikasını bilən və keşiyində durub zədələnməyə qoymayan, ən azı, Azərbaycanda təhsil almış vətənpərvər ziyalılar dayanmalıdır. Bu gün qəzetin latın qrafikalı dərslikləri, qəzet və jurnalları, müasir elmi-bədii ədəbiyyat nümunələrini bizim köməyimizlə Dərbəndə gətirib, anadili mühiti zənginləşdirməli olan, məlum dairələrin məqsədli şəkildə unutdurmağa çalışdıqları ədəbi və danışıq dilimizi qoruyub-yaşatmağı bacaran rəhbərliyə böyük ehtiyacı var.

Biz butaylı ziyalılar da "Dərbənd" qəzetinin Rusiya Federasiyasında rəsmi olaraq Azərbaycan dilində çap edilən tək mətbu orqan olduğunu, ana dilimizin, ulu və zəngin mədəniyyət tariximizin təbliği yönündə böyük xidmətlər göstərdiyini və Dağıstanda yaşayan soydaşlarımıza mənəvi dayaq olduğunu nəzərə alaraq köməyimizi əsirgəməməli, bu yöndə məqsədyönlü iş aparmalıyıq.

Samurun o tayında kiril əlifbasının boz kölgəsində itib-batan, köməksiz həmkarlarımızın ümidinə qalıb imdad diləyən "Dərbənd" qəzetinin timsalında müqəddəs dilimizi qorumasaq, Məhəmməd Tağı Qumrunun XIX əsrdə səslənmiş bu hayqırtısı bizi rahat buraxmayacaq:

**Torpaq dolub o başlara ki,**
**əyməzdi çərxə baş,**
**Torpaqlar içrə onlardan**
**bir nişan hanı?!**

*Ramiz QUSARÇAYLI,*
*Azərbaycan Yazıçılar Birliyi Quba Bölməsinin sədri*

## Sosial sfera yenilikləri

### Normativ hüquqi akt layihəsi hazırlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız xəbərdə deyilir ki, cari ilin 6 ayında nazirlik əməkdaşları tərəfindən 217 normativ hüquqi akt layihəsi hazırlanıb.**

Bildirilir ki, yeni normativ hüquqi akt layihələri sosial islahatların həyata keçirilməsinə, sosial müdafiə sisteminin gücləndirilməsi və aktiv məşğulluq proqramlarının genişlənməsinə xidmət edir. Bununla, həmçinin əmək və məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində normativ hüquqi bazanın təkmilləşdirilməsi təmin olunur.

Qeyd edək ki, ümumilikdə, son beş ildə nazirlik tərəfindən 2 min normativ-hüquqi akt layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

### 159 DOST-umuz oldu




**Ölkəmizdə uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və onların hüquqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində aparılan çoxşaxəli sosial islahatlar fonunda Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə yeni sosial institut olan "Himayədar ailə" konsepsiyasının daxil edilməsi ilə bu sahədə yeni mərhələyə keçidin təməli qoyulub.**

Belə ki, "DOST Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" fərmanda dəyişikliyin edilməsi barədə Azərbaycan Prezidentinin 12 iyul 2023-cü il tarixli fərmanı ilə "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"na müvafiq xidmətlər əlavə olaraq daxil edilib. Belə ki, "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"na beşi də əlavə olunmaqla onların sayı 159-a çatdırılıb.

### Yarım ildə 8,5 milyon müraciət

**ƏƏSMN-nin fəaliyyət sahələri üzrə elektron xidmətlərə 2023-cü ilin birinci yarısında 8,5 milyon müraciət qeydə alınıb.** Qurumların informasiya bazaları ilə inteqrasiya prosesi təmin edilir və yan-




var-iyun aylarında nazirliyin mərkəzləşmiş informasiya sistemlərinə sorğu sayı 110 milyon olub. Son 6 ayda e-sosial.az portalından isə 4,5 milyon dəfə istifadə olunub.

### İmtiyazlı şəxslər sanatoriyaya göndərilir

**Sosial Xidmətlər Agentliyi tərəfindən 2023-cü ilin altı ayında 1697 nəfər imtiyazlı şəxs yollayışla təmin olunaraq xəstəliklərinə uyğun sanatoriya-kurort və müalicə mərkəzlərinə göndərilib. Onlardan 200 nəfərə yaxını şəhid ailələrinin üzvləridir.**

Vətəndaşlar Naxçıvan Muxtar Respublikasındakı "Duzdağ" Fizioterapiya Mərkəzi, "Darıdağ" Arsenli Su Müalicəxanası, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi, Möcüzəvi Naftalan Sağlamlıq Mərkəzi, Şahdağ – Quba –Truskavets Tibb Sanatoriyası və digər mərkəzlərdə müalicə kursu keçiblər.

Ümumilikdə, postmüharibə dövründə 10 min 276 imtiyazlı şəxs yollayışla təmin olunaraq sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb. Onlardan 917 nəfəri şəhid ailələrinin üzvləridir.

### Əməkhaqqı fondunda 10 faiz artım

**Məşğulluq imkanlarının artırılmasına, qeyri-rəsmi məşğulluğun leqallaşmasına yönələn kompleks tədbirlər nəticəsində əmək müqavilələrinin sayında artım davam edir.**

Bu ilin 6 ayında ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 1 faiz və ya 18 min 500 müqavilə artaraq 1 milyon 765 minə çatıb.

Aparılan əməkhaqqı islahatları və əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunun da artması ilə nəticələnib. 2023-cü ilin yanvar–iyun aylarında əməkhaqqı fondunda daha 10 faiz artım qeydə alınıb.

Ümumilikdə, son 5 ildə əmək müqavilələrinin sayında 35 faiz, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

# Ümidləri sönməyə qoymayan "Koru" işığı

**Həyat bitməyən bir eşq, sönməyən bir atəş kimidir. Yaşadıqca yaşamaq, çin olan arzularının sevincindən həzz almaq istəyirsən. Amma qəfil gələn bir bəd xəbər, sanki, bütün yaşadıqlarını ömür dəftərindən silmək qəsdi ilə qapını döyür. Bizim ailə üçün də belə oldu...**

Həyat yoldaşım Yeganə xanım çoxdan zob xəstəliyindən şikayət edirdi. İlk dəfə 1997-ci ildə əməliyyat olunsa da, cərrah qalxanabənzər vəzin bir hissəsini saxlamışdı ki, dərman içməkdən xilas olsun. 26 il sonra zob öz fəsadını yenə göstərdi. Amma 26 ildə Azərbaycanda da tibbin inkişaf etdiyini düşünüb, bu bəlanı özümüzə


Əminə Akgümüş


Ahmet Altıbarmaq


İsmayıl Biri

dərd etmədik. Soraqlaşıb Bakıda zobun müalicəsinin "ən tanınmış" həkimini tapdıq – Sadiq Bəbirov. Elə ilk müayinədən sonra o bildirdi ki, "əməliyyat olunmalıdır və zob tam götürülməlidir"...

Əməliyyatı da, əlbəttə, Sadiq Bəbirov özü etdi. Amma söylədiyi kimi olmadı. Əməliyyatdan iki həftə sonra məlum oldu ki, cərrahi yolla çıxarılan zob biopsiya edilib və xərçəng aşkarlanıb. Əməliyyatı aparan cərrah onkoloqa müraciət etməyi tövsiyə etdi və bildirdi ki, bir seans radioaktiv yod veriləcək, bununla da hər şey yoluna düşəcək. Onkoloq-həkim ilk müayinədən sonra bildirdi ki, boğazdakı düyünlər tam götürülmədiyindən radioaktiv yod vermək mümkün olmayacaq. Bu o demək idi ki, xəstə yenidən əməliyyat olunmalıdır. Əslində, cərrah S.Bəbirov xəstəyə bütün düyünlərin götürüləcəyini deyib, üstəlik, bunun üçün kifayət qədər vəsait də ödətdirmişdi...

İndi bunları araşdırmaq zamanı deyildi. Təcili müayinələrin cavablarını Ankara şəhərindəki "Koru" özəl xəstəxanasına göndərdik. Cavab qısa oldu: "Acil gəlsinlər, dərhal əməliyyat olunmalı və düyünlər çıxarılmalıdır".

İki gündən sonra biz artıq Ankarada idik. "Koru" xəstəxanasının sürücüsü bizi hava limanında qarşılayıb mənzil başına gətirdi. Xəstəxanaya çatar-çatmaz, kompleksin idarəetmə qrupunun rəhbərlərindən biri, sözün əsl mənasında, mələk kimi bir insan Əminə Akgümüş dərhal göstəriş verdi ki, əşyalarımızı mühafizə otağına qoyub xəstəni əvvəlcədən müəyyənləşdirdikləri həkim-cərrahın qəbuluna aparsınlar.

Müşayiətçi xanım bizi Azərbaycandakı özəl xəstəxanalardan fərqli olaraq, ödəniş etmək üçün kassa qarşısına deyil, nəzakətlə həkim-cərrah İsmayıl Birinin otağına gətirdi. Doktor yüz ilin tanışı kimi bizi salamlayıb xəstənin Bakıdakı müayinələrinin nəticələrini diqqətlə nəzərdən keçirdi. Müəyyən dəqiqləşdirmələrdən sonra, "Əsla darıxmayın, burda qorxulu bir şey yoxdur, Allahın köməyi ilə biz o düyünləri çıxaracağıq, sonra radioaktiv yod verəcəklər, bununla da bitib gedəcək", – deyib elə ilk dəqiqədən narahatlığımızı aradan qaldırmağa çalışdı. Sonra gənc tibb bacısına xəstənin qan müayinəsini aparmaq üçün müvafiq laboratoriyaya aparmağı tapşırdı.

Qan müayinəsindən sonra bizi xəstə və yaxınları üçün nəzərdə tutulan geniş bir otaqda yerləşdirdilər. Çox keçmədi ki, anestezioloq gəldi. Artıq qanın müayinəsinin nəticələri onun əlində idi. Müəyyən suallar verib bəzi dəqiqləşdirmələr aparandan sonra, yanındakı tibb bacısına xəstəni əməliyyata hazırlamağı tapşırdı. Lazımi prosedurlar diqqətlə yerinə yetirilirdi.

Əməliyyata hazırlıq prosesi o qədər sürətlə, dəqiq, ancaq hay-küysüz aparılırdı ki, sanki, yuxu görürdüm. Axşama yaxın xəstəni birbaşa əməliyyat mərkəzinə apardılar. Mənə isə çox nəzakətlə darıxmamağı və otaqda gözləməyi məsləhət gördülər. Elə düşünürdüm ki, bütün bu işlərin təşkilində əsas rolu olan Əminə xanım artıq bizi unudub. Amma heç demə, belə deyilmiş. Narahat və gərgin keçən iki saatın tamamında telefonum zəng çaldı. Əminə xanım mehriban səslə bildirdi ki, əməliyyat çox uğurlu keçib və xəstə hazırda narkozdan ayılmaqdadır. Yarım saata otağa qaldırılacaq. Söylədiklərinə əmin olum deyə, əməliyyatın gedişinin videogörüntüsünü telefonuma göndərdi.

Bütün bu gərginliyə tablaşmaq ona görə çətin idi ki, həyat yoldaşımın adı özündən vahiməli xəstəliklə necə bacaracağı ilə düşüncəmə taxılan qorxulu fikirlər məni çox sarsıdırdı. Amma nə yaxşı Ankaradakı "Koru" xəstəxanasında, sözün əsl mənasında, mələk kimi xeyirxah İsmayıl Biri kimi həkimlər, Həcər və Mehtab kimi tibb bacıları, Əminə Akgümüş kimi yüksək insani dəyərləri özündə daşıyan rəhbər işçilər var imiş. Yeri gəlmişkən, Əminə xanım maddi imkanımızı nəzərə alıb, əməliyyata görə ödəniləcək vəsaitin 30-40 faiz güzəşt edilməsini "Koru"nun rəhbərliyi ilə razılaşdırmışdı. Bu, bizim gözləmədiyimiz bir hədiyyə idi.

Əməliyyatdan sonra orada qaldığımız 4 gündə cərrah İsmayıl Biri, Əminə xanım bir neçə dəfə otağımıza gəlib xəstənin səhhəti ilə maraqlandılar, qayğılarını əsirgəmədilər. Göstərilən yüksək diqqət və sevgiyə görə rəhbərliyə təşəkkür etmək üçün əməliyyatdan iki gün sonra "Koru" Sağlık Qrupunun Danışma Kurulu başkanı Ahmet Altıbarmakla görüşdüm. Onun iş otağında da eyni diqqət və mehriban münasibət məni təsirləndirdi. Doğma insan kimi xeyli söhbət etdik. Görüşümüzdən xatirə şəkli çəkdirəndən sonra, "İlqar bəy, bu gün otağınıza gəlib xəstəyə mütləq baş çəkəcəyəm" – dedi. "Narahat olmayın", – deyib özümdə bu sözlərin nəzakət xətrinə söylənildiyini düşündüm. Amma düşüncəmdə yanılmışdım. Görüşümüzdən iki saat sonra otağın qapısı döyüldü. Qapını açanda təəccübümü gizlədə bilmədim. "Koru" Sağlık Qrupunun Danışma Kurulu başkanı Əhmət Altıbarmak şəxsən özü idi. Ayaqüstü xəstə ilə qısa səmimi söhbət edib, darıxmamağı və tezliklə sağalacağını bildirdi. Çöhrəsindən yağan ümid işığından mehriban və isti sözlərlə xəstəyə də, mənə də böyük bir ümid payı verib getdi...

Bunlar unudulmayacaq olaylar olduğundan "Koru" xəstəxanasında qarşılaşdığımız hər şeyə görə adlarını çəkdiyim insanlara ailəmiz adından təşəkkür və minnətdarlığımızı bildirməyi özümə borc bildim. Çünki bu insanların hər birinin münasibətindən, diqqət və qayğısından, adi təsəllisindən belə xəstənin də, inamı üzülməyə doğru gedən özümün də qəlbimə bir ümid işığı düşdü. Yaşamaq həvəsinin yenidən közərməsi üçün bu ümid işığına çox böyük ehtiyacımız vardı. Xüsusilə də özündən daha çox mənim üçün, qızları, oğlu və nəvələri üçün yaşamaq istəyən həyat yoldaşıma indi bu, daha çox lazım idi.

Ümid işığı saçan əziz "Koru" kollektivi, həyat eşqi verən çırağınız heç zaman sönməsin və daim gur yansın!

***İlqar RÜSTƏMOV,***
***"Xalq qəzeti"nin məsul katibi,***
***Əməkdar jurnalist***

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

şəbəkə avadanlıqlarının lisenziyalarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Zərflərin təqdim edilməsi üçün son tarix 24 avqust 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "AKSERMAN" ASC səhmdarlarının nəzərinə!

1 sentyabr 2023-cü il saat 11.00-da Ağcabədi şəhəri, M.Ə.Rəsulzadə küçəsi 157 nömrəli ünvanda "AKSERMAN" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin tək başçısının (sədrinin) seçilməsi.

**2.** Səhmdar cəmiyyətin fəaliyyətinin müzakirəsi.

**3.** Cəmiyyətin 2022-ci ilin yekunlarına aid maliyyə hesabatı.

**4.** Səhmdar cəmiyyətin nizamnaməsində dəyişiklik edilməsi və yeni redaksiyada təsdiq olunması.

**5.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

***İdarə heyəti***

## BİLDİRİŞ

Bakı şəhəri, Nizami rayonunun, Keşlə qəsəbəsi, Köndələn küçəsi 21 nömrəli ünvanda yerləşən "EUROPEAN TOBACCO –BAKU "ASC-nin nizamnaməsinin 3.4, 6.1 və 6.3-cü maddələrinə uygun olaraq səhmdarların növbədənkənar ümumi yığıncağının aşağıda göstərilən gündəliyi ilə əlaqədar "Wyadham Baku Hoteli" Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi 12 nömrəli ünvanda 2 sentyabr 2023-cü il saat 10.00-da keçiriləcəyi barədə məlumat verilir.

**Gündəlikdəki məsələ:**

**1.** Cəmiyyətin nizamnamə kapitalının azaldılması.

Növbədənkənar ümumi yığıncağın gündəliyindəki məsələ ilə əlaqədar materiallarla cəmiyyətin ofisində saat 9.00-dan 18.00-dək tanış olmaq mümkündür.

Xahiş edirik ki, yığıncaqda iştirak etmək üçün öz şəxsiyyət vəsiqənizi (nümayəndə qismində iştirak etdiyi təqdirdə isə etibarnaməni) təqdim edəsiniz.

***İdarə heyəti***

## "Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının nəzərinə!

30 avqust 2023-cü il saat 16.00 -da "Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin maliyyə hesabatı.

**2.** Cəmiyyətin idarə heyətinin hesabatı.

**3.** 2022-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və illik hesabatın təsdiq olunması.

**4.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqlənməsi və hüquqi ünvanının dəyişdirilməsi.

**5.** Dividendlərin paylanması.

**6.** Cəmiyyətin direktorlar şurası sədrinin və üzvlərinin seçkisi.

**7.** Cəmiyyətin idarə heyəti sədrinin və üzvlərinin seçkisi.

Növbədənkənar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 ( iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların növbədənkənar ümumi yığıncağında səhmdar özü, yaxud notarius tərəfindən təsdiq edilmiş etibarnamə əsasında səlahiyyətli nümayəndəsi iştirak edə bilər.

**"Gəncə Körpü Tikini-2" ASC-nin idarə heyəti**

## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

"Cəbrayıl Rayonunun Horovlu Kənd Yaşayış Məntəqəsində 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi" işlərinin satın alınması üçün

AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, 8 noyabr prospekti Ağ şəhər ofis binasının 4-cü mərtəbəsində yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs-satınalmalar şöbəsinin müdiri Emil Ağazadə və satınalmalar şöbəsinin baş məsləhətçisi Zaur İbrahimov.

E-mail: emil.aghazada@shzbti.gov.az / zaur.ibrahimov@shzbti.gov.az

Tel: +994505060660 / + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN: 5200287501

Bank-"KAPİTAL BANK" ASC-nin 28 may filialı

Kod - 200123

VÖEN - 9900003611

M/h - AZ37NABZ01350100000000001944

H/h- AZ31AIIB380300D9447648156112

S.W.İ.F.T. : AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

Tender iştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• tenderdə iştirak etmək üçün ərizə;

• iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

• tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü ərzində qüvvədə olmalıdır);

• tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);

• tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri;

• malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);

• malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);

• öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;

• malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir)

• kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;

• baş podratçı kimi son yeddi il (2016-cı il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 30 (otuz) milyon manatdan az olmayan, müraciət edənin isə ən azı 10 (on) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara icazə aktları təqdim edilməlidir;

• son yeddi il (2016-cı il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində tikinti- quraşdırma işləri üzrə ən azı 30 (otuz ) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər.

Qeyd- tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 1 sentyabr 2023-cü il saat 10.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11 sentyabr 2023-cü il saat 17.00-a qədər Bakı şəhəri, 8 noyabr prospekti, Ağ şəhər ofis binasının 4-cü mərtəbəsində yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, 8 noyabr prospekti, Ağ şəhər ofis binasının 4-cü mərtəbəsində yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"ndə 12 sentyabr 2023-cü il saat 10.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

SON SƏHİFƏ
Xalq qəzeti
Xalqın qəzeti!
№ 156 (30272) 27 iyul 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

# Maribor-2023-də 2 qızıl medal

**Maribor-2023 XVII Avropa Gənclər Olimpiya Festivalında cüdoçu qızlarımız uğurla çıxış edərək qalib adına layiq görülüblər. Komandamızın aktivinə qızıl medalları Vüsalə Hacıyeva (48 kq) və Xədicə Qədəşova (52 kq) yazdırıblar.**



Təmsilçilərimizdən Məhəmməd Musayev (60 kq) və Cəsur İbadlı (66 kq) isə bürünc medal qazanıblar.

Xatırladaq ki, Maribor-2023-də bundan əvvəl cüdoçularımız Nihad Məmişov (50 kq) və Ayxan Mirzəzadə (55 kq) üçüncü yeri tutublar.

# XXXI Ümumdünya Yay Universiadasında Azərbaycan bayrağı qaldırılıb



**Çinin Çenqdu şəhərində keçirilən XXXI Ümumdünya Yay Universiadasında Azərbaycan bayrağının qaldırılması mərasimi keçirilib.**

Mərasimdən sonra Atletlər kəndində Azərbaycanın şərəfinə ağac əkilib.

XXXI Ümumdünya Yay Universiadasının açılış mərasimi iyulun 28-də keçiriləcək. Açılış mərasimində Azərbaycan bayrağını cüdoçumuz Gültac Məmmədəliyeva və atletimiz Nazim Babayev daşıyacaqlar.

# Azərbaycan Premyer Liqası: İlk turun cədvəli

**Azərbaycan Premyer Liqasında 2023/2024 mövsümünün I turunun oyun cədvəli müəyyənləşib.**

Mövsümə Tovuzda start veriləcək. Yerli "Turan Tovuz" avqustun 4-də elitaya qayıdan "Araz-Naxçıvan"la görüşəcək. Avqustun 5-də "Səbail" – "Sumqayıt", "Qarabağ" – "Zirə" qarşılaşmaları keçiriləcək. Bir gün sonra isə "Kəpəz" – "Neftçi", "Sabah" – "Qəbələ" oyunları baş tutacaq.

Qeyd edək ki, aparılan işlərin yekunları ilə tanış olmaq məqsədilə qarşılaşmaların təşkil ediləcəyi Tovuz və Gəncə şəhər stadionlarına iyulun 31-də yekun baxış keçiriləcək.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



# "Twitter" ad və loqosunu dəyişəcəkmi?

**İlon Mask "Twitter"in adını və loqosunu dəyişmək istədiyini açıqlayıb. Bu barədə o öz hesabında paylaşıb edib. "Tezliklə biz "Twitter" brendi və quş loqosu ilə vidalaşacağıq", – deyə o qeyd edib.**

Sosial media platformasının sahibi bildirib ki, yeni loqo "X" şəklində olacaq. Mask loqosu ilə "hər insanı unikal edən qüsurları təcəssüm etdirmək" istədiyini iddia edib.

Qeyd edək ki, bir müddət əvvəl şirkətin adı "X Corp" olaraq dəyişdirilib. Həmçinin "Twitter"in loqotipindəki quş fiquru aprel ayında müvəqqəti olaraq it ilə əvəz edilmişdi.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

# "Apple"ın öz eynəkləri…

**"Apple" oyun və proqram tərtibatçıları üçün yeni "visionOS" VR eynək dəstini təqdim edib. Bura, həmçinin qulaqlıqlar, cihazın quraşdırılması ilə bağlı yardım və "visionOS" üçün proqram dizaynı da daxildir.**



"Apple", eyni zamanda London, Münxen, Şanxay, Sinqapur və Tokioda "Vision Pro" tərtibatçı laboratoriyalarını tərtib edir. Şirkət tərtibatçılara proqramlarının "visionOS" üçün hazır olduğundan əmin olmaları üçün uyğunluq yoxlama siyahısını da dərc edib.

"Apple Vision Pro"nun başlanğıc qiyməti 3499 dollar olacaq və gələn ilin əvvəlində ABŞ-da satışa çıxarılacaq.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Maraq dünyamız

# Bermud üçbucağı təhlükəlidirmi?

**Onilliklər ərzində Bermud üçbucağı mistikası və təhlükəsi ilə insanların diqqətini çəkib. İtmiş gəmilərin və təyyarələrin hekayəsi çoxlarının marağına səbəb olub və nəticədə Atlantik okeanının bu bölgəsində həqiqətən nə baş verdiyinə dair bir çox nəzəriyyə və fərziyyələr ortaya çıxıb. Lakin əsl mənzərəni anlamaq üçün mötəbər elmi mənbələrə, statistikaya, faktlara müraciət etmək lazımdır.**



ABŞ Milli Okean və Atmosfer Administrasiyasının araşdırmalarına görə, Bermud üçbucağı okeanın hər hansı digər bölgəsindən daha təhlükəli və sirli deyil. Bu ərazidə itkin düşən gəmi və təyyarələrin sayı okeanların digər əraziləri üzrə orta statistik göstəricidən çox deyil. Son 100 ildə Bermud üçbucağında 50-yə yaxın gəmi və 20 təyyarə yoxa çıxıb. Bu, ərazidən keçən gəmi və təyyarələrin ümumi sayı ilə müqayisədə böyük rəqəm deyil.

Alimlər Bermud üçbucağında yoxa çıxmalarla bağlı təbii izahatlar təklif edirlər. Məsələn, okeanın dibindəki vulkanlar qaz buraxa bilər ki, bu da suyun sıxlığının azalmasına və nəticədə gəminin batmasına səbəb olur. Bundan əlavə, buradakı güclü maqnit sahələri naviqasiya sistemlərinin nasazlığa, o da istiqamətin itirilməsi və qəzalara səbəb ola bilər. Həmçinin müasir alimlər Bermud üçbucağında bəzi yoxa çıxmaların səbəbini insan faktoru ilə əlaqələndirir. Ekipajın qeyri-kafi hazırlığı, naviqasiya səhvləri və pis hava qəzalara və itkin düşməyə səbəb ola bilər.

# Prezidentin "nüvə çamadanı"

**ABŞ Prezidentinin "nüvə çamadanı" haqqında hamı bilir. Bu qutu dövlət başçısına dünyanın istənilən yerindən nüvə zərbəsi əmri verməyə imkan yaradan çox məxfi peyk əlaqə nöqtəsidir. İlk belə çamadan prezident D.Eyzenhauer dövründə ortaya çıxıb, lakin Con Kennedinin dövründə müasir görünüşünü alıb.**



Bəzən çamadanın gizli açarı itirilib. Bir dəfə prezident Cimmi Karter çamadanı işə salmaq üçün tələb olunan identifikator (kod) kartını gödəkcəsinin cibində unudub. Paltar isə quru təmizləməyə aparılıb. Orada ölkənin birinci şəxsinin əşyaları ayrıca yuyulub təmizləndiyindən gödəkcə bir kənara qoyulub. Beləliklə, bir neçə saatdan sonra itki aşkar edildikdə Ağ evdə böyük həyəcan yaşanıb. Kimyəvi təmizləmə məntəqəsinə gələn agentlər gödəkcənin hələ yuyulmağa göndərilmədiyini və kartın yerində olduğunu gördükdə rahat nəfəs alıblar. İşçilərə baş verən hadisəni unutmaq tövsiyə edilib.

"Nüvə çamadanı" ilə bağlı hadisələr Corc Buş (ata), Bill Klinton dövründə də baş verib. Maraqlıdır ki, üç belə çamadan var. Onlardan ikisi prezident və vitse-prezidentin yanındadır, üçüncüsü isə həmişə Ağ evdədir.

# Delfinlər bir-birini "adı" ilə çağırır

**Delfinlər səslərdən istifadə edərək ünsiyyət qururlar. Bu yaxınlarda bioloqlar onların "nitqi"nin nə qədər inkişaf etdiyini aşkar ediblər.**



Məlum olub ki, hər bir fərd xüsusi bir fitə cavab verir və o, doğuşdan dəyişməz qalır. Delfin ünsiyyətini, təhlili elm adamlarına bəzi "adları" da müəyyən etməyə imkan verib. O, sualtında səsləndirildikdə, hər "ad"a bir delfin cavab verib. Çox güman ki, qrup zəif görünmə şəraitində bir-birilə bu yolla rabitə qurur.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

# Oyuncaq da maddi-mənəvi irsdir

***Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin qeyri-maddi mədəni irs daşıyıcısı kimi tanıdığı 73 yaşlı oyuncaq ustası Orhan Karaalioğlu uşaqlıq xatirələrindən ilhamlanaraq keçmişin unudulmuş oyuncaqlarını düzəldir və bu ənənəvi oyuncaqdüzəltmə sənətini gənc nəslə ötürür.***



Karaalioğlu "Anadolu" Agentliyində uzun müddət fotomüxbir kimi fəaliyyət göstərib. Təqaüdə çıxdıqdan sonra oyuncaqlar düzəltməyə, uşaqlıq illərinin oyuncaqları ilə bağlı xatirələrini "Əl işi ənənəvi oyuncaqlar" adlı kitabında toplayıb.

Bəzən zərərli materiallardan hazırlanan oyuncaqların təhlükəli olduğunu deyən Karaalioğlu uşaqlar üçün heç bir zərəri olmayan su əsaslı akril boyalardan istifadə edir. Onun düzəltdiyi əl işləri uşaqları əyləndirməklə yanaşı, bacarıqlarını da inkişaf etdirir.

Uşaqların planşet və telefonlarda rəqəmsal oyunlarla həddindən artıq məşğul olması ilə bağlı narahatlığını ifadə edən Karaalioğlu onların ünsiyyətinin və əyləncəsinin ənənəvi oyuncaqlar vasitəsilə qurulmasının vacibliyini vurğulayır.

Qeyri-maddi mədəni irsin daşıyıcısı olaraq, Karaalioğlu ənənəvi oyuncaqdüzəltmə sənətini inkişaf etdirmək və gələcək nəsillərə ötürmək istiqamətində işlərini davam etdirir.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

Sağlamlıq

# Mədəyə dost bitkilər...

***İnsan orqanizmi təbii otlarla daha effektiv müalicə olunur. Lakin bunun üçün həkimlə məsləhətləşmək mütləqdir. Orqanizm fərdi olduğundan bir bitki 2 insana fərqli təsir edə bilər.***



Fitoterapevt Olqa Moronun sözlərinə görə, bitkilərin faydalı xüsusiyyətlərini saxlaması üçün məhsul yığımı texnologiyasını bilmək lazımdır. Elə bitki var ki, onu günəş doğmadan yığmaq lazımdır, digərini işıqda və s. Buna görə də dərman bitkilərini aptekdən almaq məsləhətdir. Mədə-bağırsaq problemi olanlar üçün evdə bu bitkilər olmalıdır:

**Çobanyastığı.** Həzm pozğunluğu, ürəkdə göynəmə, mədədə yüksək turşuluq, həmçinin koliti olan uşaqlar üçün çox təsirli bir vasitədir.

**Yovşan.** Bu bitkini təşkil edən maddələr şişkinliyi azaldır və həzm şirələrinin sərbəst buraxılmasına kömək edir.

**Yaşıl çay.** Tərkibində olan katexin flavonoidləri mədə xoralarının sağalmasına kömək edir və təkrar yaranmasının qarşısını alır.

**Nanə.** Bağırsaqların spazmını aradan qaldırır, ağrıları əhəmiyyətli dərəcədə azaldır. Ürəkbulanmanı götürür və hər hansı həzm pozulmasında faydalıdır.

**Bəlğəmotu.** Bu bitkini su ilə qarışdırıb içəndə mədəaltı vəzin selikli qişasına yaxşı təsir edir. Mədə xorası və kolitdə də çox faydalıdır.

Mütəxəssislərin fikrincə, bunlardan başqa, aloe, şüyüd toxumu, zəncəfil, kələm suyu, zərdəçal, alma sirkəsi də həzm orqanlarına faydalı təsir göstərir.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz

# Əsasən yağmursuz keçəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 27-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:

Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti,

Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 30-35°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

# ALLAH RƏHMƏT ELƏSİN

Milli Aviasiya Akademiyasının prorektoru Şəmsəddin Axundov və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov Bakı Şəhər Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalova əzizi

**ZAHİD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi mərkəzin direktorlar şurası sədrinin müavini Namiq Babayevə əzizi

**İLHAM MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4626
SİFARİŞ 1852
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00